

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 49 (7304) / Cümə axşamı, 14 mart 2019-cu il


## Qlobal Bakı Forumu mühüm beynəlxalq platformaya çevrilib



⇨ Bax: səh. 2

## Birinci vitse-prezident Mehriban Əliyeva Roma Papasını təbrik edib



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk Həzrətlərinə Tacqoyma Gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.*

*Məktubda Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanır, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilir.*

## Ölkəmizdə BMT-nin İnkişaf Proqramının layihələri reallaşır



⇨ Bax: səh. 5

⇧ Bax: səh. 3



**Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri:**

## Müasir diplomatiyamızda yeni səhifə

⇧ Bax: səh. 5

*Siyavuş Novruzov:*

**Onlar xarici kəşfiyyatın, erməni lobbisinin həyata keçirdiyi layihələrin iştirakçısı olub**



⇧ Bax: səh. 5



**Bakı Ali Neft Məktəbində "SOCAR KBR"in rəhbərliyi ilə tələbələrin görüşü**

⇧ Bax: səh. 7



**Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları BSU-da**

⇧ Bax: səh. 5



**SOCAR-ın Daxili Təqaüd Proqramına sənəd qəbulu başlayıb**


8 | Vidadi İsgəndərlinin erməncə "moizələri"

9 | Vassaldan Avropa ölkəsi olmaz

16 | Dünyanın ən bahalı brilyantları

## Yaradıcılıq ittifaqları və birliklərinə 3 milyon manata yaxın vəsait ayrılıb

Prezident İlham Əliyev yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Azərbaycan Respublikasında dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən yaradıcılıq ittifaqları və birlikləri milli ədəbiyyatın və ana dilinin inkişafında, xalqımızın zəngin musiqi irsinin dünyada geniş miqyasda tanıdılmasında, teatr, kino və aşıq sənəti ənənələrinin qorunub saxlanılması və təbliğində fəal iştirak edir.

Ölkənin mədəni həyatında və ədəbi-ictimai fikrin formalaşmasında, habelə Azərbaycanda mədəniyyətin, incəsənətin təbliğində, memarlığın inkişafında yaradıcı kollektivlərin rolu əvəzsizdir.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Yazıçılar Birliyinə 800 min manat, Azərbaycan Bəstəkarlar İttifaqına 650 min manat, Azərbaycan Rəssamlar İttifaqına 350 min manat, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqına 300 min manat, Azərbaycan Memarlar İttifaqına 250 min manat, Azərbaycan Teatr Xadimləri İttifaqına 250 min manat və Azərbaycan Aşıqlar Birliyinə 250 min manat ayrılsın.

Maliyyə Nazirliyi Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin edəcək. Nazirlər Kabineti Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## "Çıraqqala" abidəsində bərpa-konservasiya işlərinə 2 milyon manat ayrılıb

Prezident İlham Əliyev "Çıraqqala" abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Şabran rayonunun ərazisində yerləşən, V-VI əsrlərə aid "Çıraqqala" abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinin görülməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 2 milyon manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.

Nazirlər Kabineti Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Maliyyə Nazirliyinə tapşırılır ki, Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

# Qlobal Bakı Forumu mühüm beynəlxalq platformaya çevrilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edərək ölkəmizə Novruz bayramı ərəfəsində gəlmələrindən və Azərbaycan xalqı tərəfindən onlara göstərilən qonaqpərvərlikdən dərin məmnunluq hissi keçirdiklərini bildirdi. Xanım Vayra Vike-Freyberqa dövlətimizin başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi qiyməti yüksək dəyərləndirdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin genişləndiyini vurğulayan Vayra Vike-Freyberqa Mərkəzin İdarə Heyətinə yeni üzvlərin daxil olduğunu və martın 14-16-da keçiriləcək VII Qlobal Bakı Forumunun işində 50 ölkədən 500-dən artıq nümayəndənin iştirak edəcəyini vurğuladı. Xanım Vayra Vike-Freyberqa bildirdi ki, "Dünyanın yeni xarici siyasəti" mövzusunda təşkil olunacaq bu Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı Mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsinin önəmini qeyd etdi və bunu Nizami Gəncəvi Mərkəzinin artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi. Eyni zamanda, Prezident İlham Əliyev Qlobal Bakı Forumunun dünyada mühüm beynəlxalq platformaya çevrildiyini dedi və Forum çərçivəsində qlobal əhəmiyyət daşıyan məsələlər ətrafında müzakirələr aparılmasının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə bundan sonra da ölkəmizin dəstək verəcəyini vurğuladı.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Mərkəzin fəaliyyətinə verdiyi dəstəyə görə qurumun İdarə Heyəti adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

# BMT İnkişaf Proqramı Azərbaycanla əməkdaşlıqdan məmnundur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, dövlətimizin başçısı BMT İnkişaf Proqramının ölkəmizdə iyirmi ildən artıq bir dövrdə uğurla fəaliyyət göstərdiyini qeyd edərək, xüsusilə Azərbaycanın müstəqilliyinin ilk illərində bu Proqramın və BMT-nin digər ixtisaslaşmış təsisatlarının ölkəmizə dəstəyinin yüksək qiymətləndirildiyini vurğuladı.

Xanım Miryana Eqqer Azərbaycanın yüksək göstəricili orta gəlirli ölkələr sırasında olduğunu qeyd edərək BMT İnkişaf Proqramının Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirdi. O, BMT İnkişaf Proqramının iqtisadi şaxələndirmə, xırda və orta sahibkarlığın inkişafı və Azərbaycan üçün prioritet olan digər sahələrdə ölkəmizlə uzunmüddətli tərəfdaşlığa hazır olduğunu dedi.

Görüşdə ölkəmizin beynəlxalq humanitar layihələrə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu, bu sahədə Azərbaycan və BMT İnkişaf Proqramı arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Çin ilə Azərbaycan arasında dostluq münasibətləri mövcuddur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi Vu Haylonqu qəbul edib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, görüşdə Bakıda keçiriləcək VII Qlobal Forumun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Qəbula görə minnətdarlığını bildirən Vu Haylonq Azərbaycana səfərindən və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. O, Çin ilə Azərbaycan arasında dostluq münasibətlərinin mövcud olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan-Çin əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və əməkdaşlığımızın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Çinə rəsmi səfərlərini xatırlayan Prezident İlham Əliyev orada Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər zamanı iqtisadiyyat, ticarət, infrastruktur, nəqliyyat və digər sahələrdə əlaqələrimizin inkişaf perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını qeyd etdi.

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 11-12-də Fransa Respublikasına səfəri proqramının zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qaldı. Azərbaycan-Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatiya tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda, dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya böyük diqqət və hörmətdən, nəhayət, Birinci vitse-prezidentin diplomatik məharətindən xəbər verir.**

**Səfərin əhəmiyyətini, səciyyəvi məqamlarını bir daha diqqətə çatdıraraq, bununla bağlı fikir və mülahizələri oxucularla bölüşməyi lazım bildik.**



## Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri:

# Müasir diplomatiyamızda yeni səhifə

Fransa Qərbin aparıcı, inkişaf etmiş, Avropa İttifaqının lider dövlətlərindən biridir. Paris ənənəvi olaraq Avropa və dünya siyasətinə ciddi təsir göstərir. Cənubi Qafqazda da fəallığı ilə seçilən bu ölkə ATƏT-in Minsk qrupunun həmsədridir. Onun Yerevana təsir imkanları da ayrıca söhbətin mövzusu ola bilər. Fransada erməni diasporu və lobbisinin dövlət siyasətinə təsir göstərdiyi sirr deyil. Onlar Azərbaycan-Fransa əlaqələrini hər vəchlə əngəlləməyə, münasibətlərə kölgə salmağa çalışırlar. Lakin artıq zaman Azərbaycanın xeyrinə işləyir.

Fransa Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edir. "Total" şirkəti "Əsrin müqaviləsi"nin başlanğıcından bu neft kontraktında yer alıb. Parisin Azərbaycanla münasibətlərində diqqətçəkən daha bir məqam kosmik sahədə mövcud əməkdaşlıqdır. Azərbaycan kosmik peyklərini orbitə məhz Fransanın kosmodromundan çıxarır.

Göründüyü kimi, Fransa ilə əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində həmişə prioritet istiqamətlərdən biri olub.

Mədəniyyət sahəsində əlaqələrə gəlincə, ilk növbədə, Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi humanitar layihələr yada düşür. Artıq bu ölkənin mədəni həyatında Fondun yeri aydın görünməkdədir. Gəlin, xatırlayaq: Parisdə terror qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə, Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına yardım, Strasburq kafedralının XIV əsrə aid olan beş vitrininin, Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılması və sair. Kann şəhərində Azərbaycan mədəniyyəti günləri keçirildi, Parisdə Azərbaycan Mədəniyyəti Mərkəzi yaradıldı, Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda Azərbaycan dili fakültəsi açıldı... Bu, Fransada Heydər Əliyev Fondunun dəstəyi, bilavasitə Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin heç də tam olmayan siyahısıdır. Təsadüfi deyil ki, birinci xanım Mehriban Əliyevanın Fransa-Azərbaycan əlaqələrinin inkişafına verdiyi böyük töhfələr, mədəniyyət, elm və təhsil sahələrindəki xidmətləri Fransa görüşlərində xüsusi vurğulanırdı. Bunu Fransanın Baş naziri Eduard Filip, Senatın sədri Jerar Larşe və başqaları dilə gətirdilər. Xatırlatmaq yerinə düşər ki, bu xidmətlərinə görə birinci xanım Mehriban Əliyeva Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif olunub.



Beləliklə, Fransa ilə münasibətlərin inkişafı istər siyasi-iqtisadi və humanitar baxımdan, istərsə də ermənilərin anti-Azərbaycan təbliğatının neytrallaşdırılması nöqteyi-nəzərindən müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin Fransaya münasibətdə məqsədyönlü, düşünülmüş siyasəti bu ölkənin qapılarını üzümüzə daha geniş açır. Yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə güclü impuls verir, ona arzuedilən dinamika gətirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu Paris səfəri, yüksək səviyyəli görüşləri və danışıqları, ilk növbədə, bu praqmatik, milli maraqlara xidmət edən siyasətdən qaynaqlanır.

Əminliklə deyə bilərik ki, Fransa-Azərbaycan münasibətlərində yeni səhifə açan bu səfər qarşılıqlı əlaqələrin inkişafına ciddi töhfə verdi. Yeri gəlmişkən, bu fikrə Mehriban Əliyeva ilə görüşündə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi də şərik çıxdı.

Bu gün beynəlxalq miqyasda söz və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanla əlaqələrin genişlənməsində dünyanın bütün inkişaf etmiş ölkələri kimi, Fransa da maraqlıdır. Bunu Mehriban xanımın Parisdə keçirdiyi bütün görüşlərdə Fransanın yüksək vəzifəli rəsmiləri də xüsusi vurğulayırdılar.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərini bir neçə aspektdən səciyyələndirmək olar. Dünya Mehriban xanımın Parisdə yüksək hörmət-izzətlə qarşılandığının, ona göstərilən ali diqqətin şahidi oldu. Bu mənzərə Fransa siyasi elitasının Mehriban xanım Əliyevanı nüfuzlu lider kimi qəbul etdiyini göstərir. Həm də onu göstərir ki, Mehriban Əliyeva Qərb ölkələrinin nəzərində müsəlman-Şərq aləminin müasir dünya ilə ayaqlaşan, eləcə də Qərb dəyərlərini dərindən anlayan mütərəqqi ictimai-siyasi xadimdir. Hazırda müsəlman ölkələrində bu statusa malik ikinci bir siyasətçi qadın tapmaq çətindir.

Səfərin digər mühüm aspektlərindən biri, qeyd etdiyimiz kimi, siyasi-iqtisadi, humanitar mövzularda yüksəksəviyyəli müzakirələrin aparılması oldu. Birinci vitse-prezidentin aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri və danışıqları Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyanın cəlb edilməsində Mehriban xanım Əliyevaya yüksək inam və etimadın, eləcə də onun şəxsi nüfuzunun göstəricisi kimi diqqəti çəkir. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin qeyd etdiyi kimi, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın bu təşkilata inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

Səfər çərçivəsində keçirilən görüşləri sıralasaq, Fransanın Baş naziri Eduard Filip ilə görüşü ön sıraya qoymaq olar. Ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirən Fransa Baş nazirinin fikrincə, Azərbaycan böyük iqtisadi potensiala malikdir və ikitərəfli əməkdaşlıq üçün yaxşı perspektivlər var. Azərbaycanın neft və qeyri-neft sektorlarında çalışan fransız şirkətləri daha fəal olmalıdır. Birinci vitse-prezident Mehriban Əliyeva da bu fikirləri bölüşərək iqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu vurğuladı, fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Humanitar sahədə əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Baş nazirlə təkbətək görüşün detalları tam açıqlanmasa da, səslənən fikirlər Fransanın Azərbaycanla bütün sahələrdə, xüsusən iqtisadi sahədə əməkdaşlığı daha da genişləndirmək istəyindən xəbər verir və bu, çox mühüm amil kimi diqqətəlayiqdir. Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə imzalanan Azərbaycan-Fransa sənədlərinə nəzər yetirsək, artıq bu istiqamətdə real addımların atıldığını görə bilərik.

Məsələn, "Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" bankı arasında strateji əməkdaşlıq haqqında Saziş" imzalandı. Rotşildlərin bank biznesi investisiya-bank xidmətləri, korporativ bank xidmətləri, özəl kapital qoyuluşu, aktivlərin idarə olunması kimi mühüm sahələri əhatə edir.

⇨ Davamı 4-cü səhifədə

## Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri:

# Müasir diplomatiyamızda yeni səhifə



⇨ Əvvəli 3-cü səhifədə

Yaxud Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya", "Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi" və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə" ölkəmiz üçün xüsusi önəmə malik sənədlərdir.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə Hindistandan və Körfəz ölkələrindən göndərilən yüklərin Azərbaycan ərazisindən keçməklə Rusiyaya, Qərbi Avropaya, Baltikyanı və Skandinaviya ölkələrinə daşınması nəzərə alınarsa, haqqında söhbət gedən konvensiyanın icrası ölkəmizin iqtisadiyyatına böyük dividendlər gətirəcək.

Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi, "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılması haqqında müqavilə isə nəqliyyat infrastrukturunun inkişafında mühüm rol oynayacaq.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində ardıcıl və davamlı iş aparır. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşdə bu barədə söhbət açıldı. Nazir Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində Birinci vitse-prezidentin mühüm rolunu qeyd etdi. Mehriban Əliyeva isə öz növbəsində, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Onun fikrincə, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalı, cari ildə Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının növbəti iclası keçirilməlidir. Bu təkliflər fransalı nazir tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan dövləti üçün prioritet məsələlərdən biri də ətraf mühitin mühafizəsidir. "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşdə Azərbaycan ilə bu şirkət arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Suyun idarə edilməsi və su itkilərinə qarşı mübarizə sahəsində ölkəmiz ("Azərsu" ASC) və Fransa şirkəti arasında əlaqələrin müsbət təcrübəsi nəzərə alınarsa, bu əməkdaşlığın perspektivləri heç bir şübhə doğurmur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Fransa səfəri çərçivəsində "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşü də maraqlı məqamlarla yadda qaldı. Belə ki, Rotşildlər XIX əsrdə Azərbaycanda çox məşhur olublar. Bu barədə danışan Mehriban Əliyeva deyib: Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər. Bütün bunlar Bakıda neft sənayesini daha da canlandırmışdı. Rotşild qardaşları xeyriyyəçiliklə də məşğul olub, həmçinin Bakıda bir çox gözəl binalar tikiblər.

"Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu bildirdi və Mehriban Əliyevanın ölkəmizə səfər dəvətini məmnun-



**ASLAN ASLANOV,**
*AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti*

luqla qəbul etdi.

Fransa Senatının sədri Jerar Larşe, Milli Assambleyanın sədri Rişar Ferran ilə, həmçinin Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlərlə görüş, aparılan səmərəli danışıqlar isə parlamentlərarası əlaqələr, habelə mədəniyyət, elm, səhiyyə və təhsil sahələrində Azərbaycan-Fransa münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Səhiyyə sahəsinə gəldikdə, Fransa Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüş çox əlamətdar sayıla bilər. Nəzərə alsaq ki, Birinci vitse-prezident ölkəmizdə səhiyyənin inkişafına hərtərəfli diqqət və qayğı göstərir, bu sahədə Fransa-Azərbaycan əməkdaşlığının yeni istiqamətlərinin müəyyənləşdirilməsi təcrübə mübadiləsinə və iki ölkənin onkoloji mərkəzləri arasında daha sıx əməkdaşlığın yaradılmasına, müştərək layihələrin həyata keçirilməsinə təkan verəcək.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri iki dövlət arasında mədəni əlaqələrin inkişafı baxımından da çox əhəmiyyətlidir. Bu və digər məsələlər Fransanın birinci xanımı Brijit Makron ilə görüşdə müzakirə edildi. Brijit Makron qədim Azərbaycan mədəniyyəti incilərinin populyarlaşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması işində Mehriban Əliyevanın müstəsna rolunu yüksək qiymətləndirdi. Onun rəhbərliyi ilə müxtəlif vaxtlarda Fransada keçirilmiş mədəni tədbirlərin əhəmiyyəti vurğulandı. İnamla demək olar ki, bu görüş ailə və qadın problemləri, gender bərabərliyi, təhsil, ətraf mühitin mühafizəsi məsələlərində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edəcək.

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Risterin müşayiəti ilə Parisdəki Orsey muzeyini ziyarət etdi. Bu, bir daha təsdiqlədi ki, mədəniyyət sahəsi Azərbaycan-Fransa əlaqələrinin mühüm istiqamətlərindən biridir.

Fransada keçirilən bütün görüşlərdə Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsi də xüsusi diqqət yetirilən mövzulardan idi. Birinci vitse-prezident Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin prinsipial mövqeyini fransız hakimiyyətinin yüksək dairələrinə bir daha çatdırmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi nizamlanma prosesində Fransanın məsuliyyətinin xatırladılması üçün səfərin yaratdığı bütün imkanlardan istifadə etdi.

Bütövlükdə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfərini əlamətdar hadisə kimi səciyyələndirmək olar. Bu səfər, heç şübhəsiz, bütün istiqamətlər üzrə dövlətlərarası əlaqələrin inkişafında, o cümlədən ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasında, Azərbaycanın Aİ-yə inteqrasiyasında müstəsna rol oynayacaq.

---

*Deputat:*

## Azərbaycanın Birinci vitse-prezidentinin Fransaya səfəri münasibətlərin inkişafı baxımından əhəmiyyətlidir



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində keçirdiyi görüşlər, xüsusilə də Baş nazir Eduard Filip ilə görüşü iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Fransa ilə Azərbaycan arasında iqtisadi, mədəni, humanitar sahələrdə çox yaxşı əlaqələr mövcuddur, ancaq bununla belə, əməkdaşlıq üçün böyük potensial və daha fərqli sahələr də mövcuddur. Nəzərə almaq lazımdır ki, Fransa Avropa siyasətini müəyyənləşdirən böyük beşlik adlandırılan qrupa daxil olan ölkələrdən biri və üstəlik ATƏT-in Minsk qrupunun həm üzvü, həm də həmsədrlərindən biridir. Ona görə də belə mühüm ölkə ilə münasibətlərin yüksək səviyyədə olması daim Azərbaycanın diqqət mərkəzindədir. Elə Fransa üçün də Azərbaycan ciddi və etibarlı tərəfdaşdır.

**Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu söyləyib.**

Deputat qeyd edib ki, Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində Fransanın 59 şirkəti fəaliyyət göstərir və onların fəaliyyəti bu ölkənin milli maraqlarını ifadə edəcək qədər böyükdür. Fransanın Baş naziri ilə görüşdə dəmir yolu, kommunikasiya və bank sektoru ilə bağlı imzalanan sənədlər də ondan xəbər verir ki, hər iki dövlətin maraqları əməkdaşlığın daha da dərinləşməsini tələb edir və tərəflər buna hazırdır. Heç şübhəsiz, Fransa yuxarıda qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi üzərinə ciddi öhdəlik götürüb və biz digər həmsədr ölkələr bərabər bu Avropa ölkəsindən də real addımlar atmasını gözləyirik. Məhz bu gözləntiləri ifadə edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirdi ki, hazırkı status-kvo qəbuledilməzdir.

H.Babaoğlu əlavə edib ki, BMT Təhlükəsizlik Şurasının münaqişənin tənzimlənməsi ilə bağlı 4 qətnaməsi var. Münaqişə bu qətnamələr əsasında, beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun müqabilində Baş nazir Eduard Filip Fransanın sülh danışıqlarına sadiq qaldığını və münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində çox da sadə olmayan bir mərhələdə Fransa Baş nazirinin belə mövqe bildirməsi, əslində, ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatında səsləndirilən "Helsinki Yekun Aktında göstərilən milli müqəddəratı təyinetmə dövlətlərin ərazi bütövlüyü çərçivəsində baş tutmalıdır" prinsipini dəstəkləmək kimi başa düşülür. Bu bəyanatı qəbul edən ölkələrdən biri həmsədr ölkə kimi elə Fransadır. Bütün bunları ümumiləşdirsək görəcəyik ki, Azərbaycanın Birinci vitse-prezidentinin səfərinin iqtisadi, mədəni, humanitar tərəfləri ilə bərabər, həm də mühüm siyasi tərəfləri də var və bu bizim üçün olduqca əhəmiyyətlidir.

# Ölkəmizdə BMT-nin İnkişaf Proqramının layihələri reallaşır



**Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer ilə görüşüb.**

Baş nazirin müavini Azərbaycanın indiyədək BMT-nin İnkişaf Proqramı ilə birgə onlarla layihə həyata keçirdiyini söyləyib. Hazırda ölkəmizdə BMT-nin İnkişaf Proqramının səhiyyə, əmək və əhalinin sosial müdafiəsi sahələrini əhatə edən layihələri reallaşır. Bu layihələrin həyata keçirilməsi Azərbaycanda uğurla reallaşan bir çox islahatların nəticələrinin müsbət olmasına öz təsirini göstərir.

BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini deyib. Miryana Eqqer Azərbaycana ilk səfəri çərçivəsində tərəflər arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində fikir mübadiləri aparmaqda maraqlı olduğunu qeyd edib.

# Baş nazirin müavini Liang Jianquanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Martın 13-də Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədov ölkəmizdə səfərdə olan Çin Xarici Əlaqələr İnstitutunun prezidenti Liang Jianquanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Baş nazirin müavini deyib ki, dost ölkələr olan Çin və Azərbaycan arasında çox yaxşı ikitərəfli münasibətlər var və bu münasibətlər davamlı olaraq inkişaf edir. Bütün sahələrdə əməkdaşlıq münasibətlərinin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə yüksək səviyyədə olduğunu vurğulayan Əli Əhmədov intensiv xarakterli qarşılıqlı səfərlərin bu münasibətləri daha da möhkəmləndirdiyini və əldə olunan nəticələrin xalqlarımızın rifahı naminə real səmərə verdiyini bildirib.

Qonaq Çin-Azərbaycan münasibətlərinin yüksək səviyyəsindən və sabit inkişafından razılığını ifadə edərək, hər iki ölkədə qarşılıqlı siyasi etimadın daim dərinləşdiyini, əməkdaşlığın siyasi, iqtisadi, mədəni və digər sahələrində həqiqətən çox səmərəli nəticələr əldə olunduğunu, beynəlxalq və regional məsələlər üzrə sıx qarşılıqlı fəaliyyətlərin uğurlu davam etdiyini diqqətə çatdırıb. Liang Jianquanq geosiyasi baxımdan əhəmiyyətli mövqeyə malik olmaqla yanaşı, sürətlə inkişaf edən Azərbaycan və tədricən dünya iqtisadiyyatının inkişafında əhəmiyyətli mövqeyə malik olan Çin arasında əlaqələrin inkişaf perspektivlərinin məmnunedici olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən Çin-Azərbaycan münasibətlərinin gələcək hədəfləri barədə fikir mübadiləsi aparılıb.

*Siyavuş Novruzov:*

# Onlar xarici kəşfiyyatın, erməni lobbisinin həyata keçirdiyi layihələrin iştirakçısı olub



"Müxalifətçi odur ki, işlədiyi vaxt gətirib ərizəsini qoyur masanın üstünə, açıq şəkildə deyir ki, mən bu sistemlə, idarəçiliklə razı deyiləm. Mən istefa verirəm və müxalifətə keçirəm. Mənə bugünkü müxalifətdən elə birisini göstərin ki, belə bir addım atıb. Heç kəs bu adamları tanımır". Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, onların bəzisi sayt açır, orada söyüş səsləndirir, sonra söyüşə görə məsuliyyətə cəlb olunurlar. Sonra özlərini müxalifətçi elan edir və sığınacaq axtarışına çıxır. Onlar xarici kəşfiyyatın, erməni lobbisinin həyata keçridiyi layihələrin iştirakçısı olub. "Qeyd edim ki, milli azadlıq hərəkatından bu günə qədər proseslərin içində olmuşam, hamını tanıyıram. Həm milli azadlıq hərəkatında, həm torpaqlarımızın azad edilməsində, istər Naxçıvan, istərsə də Qarabağ ərazisindəki döyüşlərdə iştirak etmişəm. Bunlar nə milli azadlıq hərəkatında olublar, nə torpaqlarımızın azad edilməsində iştirak ediblər, nə də dövlət quruculuğunda hər hansı xidmətləri var" - deyə, YAP İcra katibinin müavini vurğulayıb.

# SOCAR-ın Daxili Təqaüd Proqramına sənəd qəbulu başlayıb

**SOCAR-ın Daxili Təqaüd Proqramına sənəd qəbulu başlayır. Müsabiqə 2018-2019-cu tədris ili üzrə Bakı Ali Neft Məktəbi istisna olmaqla, Azərbaycan Respublikası ali təhsil müəssisələrinin bakalavr pilləsinin əyani şöbəsinin 2-ci, 3-cü və 4-cü kurslarında, magistratura pilləsinin isə əyani və ya qiyabi şöbələrinin müvafiq ixtisaslarında təhsil alan tələbələri arasında keçirilir. İddiaçılar www.socar.az veb-səhifəsinin Karyera bölməsinin Təqaüd proqramları alt-bölməsindəki şərtlər və suallarla tanış olduqdan sonra "Qeydiyyat" bölməsində profil yaradaraq proqrama müraciət edə bilərlər. Müsabiqədə iştirak etmək üçün son qeydiyyat tarixi 01 aprel 2019-cu ildir.**

**Xatırladaq ki, SOCAR istedadlı gənc neftçi mütəxəssislərin yetişdirilməsi, tələbələrin neft-qaz sənayesi sahəsində müasir elmi və təcrübi biliklərə yiyələnməyə həvəsləndirilməsi məqsədilə 2004-2005-ci tədris ilindən etibarən tələbələr üçün Daxili Təqaüd Proqramını təsis etmişdir. Təqaüd proqramı ilk illərdə**



**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri üçün nəzərdə tutulsa da, hazırda ölkədə fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinin müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrinə şamil edilir.**

# Bakı Ali Neft Məktəbində "SOCAR KBR"in rəhbərliyi ilə tələbələrin görüşü




Bakı Ali Neft Məktəbində (BANM) "SOCAR KBR" MMC-nin rəhbərliyi ilə tələbələr arasında görüş keçirilib.

Görüşdə BANM-in rektoru Elmar Qasımov, "SOCAR KBR" MMC-nin icraçı direktoru Alp Toqay Kurum, şirkətin "Ümid Babək" layihəsinin direktoru David Ellis, "Abşeron" layihəsinin direktoru Brüs Bakster, Əməliyyatlar üzrə meneceri Nikunj Punkal və Kadrlar üzrə meneceri Səidə Qurbanova, həmçinin BANM-in əməkdaşları iştirak ediblər.

Görüşdə çıxış edən BANM-in rektoru Elmar Qasımov "SOCAR KBR" MMC-nin rəhbərinə ali məktəbin tələbələrinə olan marağa və onlara karyera və praktika imkanları yaratdıqlarına görə öz təşəkkürünü bildirib.

"SOCAR KBR" MMC-nin icraçı direktoru Alp Toqay Kurum tələbələrə şirkətin fəaliyyəti, məqsədi və iş prinsiplərindən danışıb, ali məktəbin ötənilki məzunları arasından işə götürülən gənclərin fəaliyyətindən razı olduğunu bildirib. O, BANM ilə "SOCAR KBR" MMC-nin əməkdaşlığının daimi olacağını vurğulayıb.

Daha sonra şirkətin əməkdaşları David Ellis və Brüs Bakster tələbələrə üzərində çalışdıqları layihələr, mühəndislik karyeraları üzrə inkişaf yolları haqqında məlumat verib. Kadrlar üzrə menecer Səidə Qurbanova isə tələbələr qarşısında karyera imkanları, Tələbə təqaüd proqramları və bu proqramlara necə müraciət edilməsi haqqında təqdimatla çıxış edib.

Nümayəndələr, həmçinin tələbələrin işə müraciət və şirkətdə təcrübə keçməklə bağlı suallarına cavab veriblər.

Tədbirdən sonra "SOCAR KBR" MMC-nin icraçı direktoru Alp Toqay Kurum və onun başçılıq etdiyi nümayəndə heyəti ali məktəbin kampusunu gəzərək buradakı infrastrukturla tanış olublar.

**Zamin Məmmədov,**
***"İki sahil"***

## Vətəndaşın Prezidentinə ürək sözü:

# Biz Sizinlə qürur duyuruq, çox sağ olun, var olun!

**Prezident kimi ilk dəfə and içəndə “Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm” söyləyən cənab İlham Əliyev ölkənin inkişaf konsepsiyasından söz açarkən ilk növbədə insan amilinə diqqət göstəriləcəyini bəyan etmişdi .**

Bu vədin reallığı müasir Azərbaycandır. Aparılan islahatlar nəticəsində Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadi islahatlar nəticəsində şəhərlə kənd arasındakı fərq aradan qaldırılır, məşğulluq siyasətinin uğurlu həllində başlıca amil olan sahibkarlığın inkişafına dövlət dəstəyi artırılır, təbii resurslardan və əmək potensialından səmərəli istifadə edilir. Bu inkişafın mərkəzində isə insan amilinə diqqət dayanır.

“Mən Azərbaycan xalqı üçün yaxşı Prezident olacağam” vədinin arxasında duran cənab İlham Əliyevin son illərdə həyata keçirdiyi islahatlar nəticəsində iqtisadi, maliyyə imkanları artan ölkəmizin müasir siması, qüdrəti, möhkəmlənən beynəlxalq nüfuzu qibtə doğuracaq reallıqların alternativsizliyinin də təsdiqidir.

Ötən illərdə Balakən və Zaqatalada baş verən zəlzələlər zamanı vətəndaşlara dəyən ziyanın, Kür çayının daşması nəticəsində sahilyanı kəndlərdə yaranan problemlərin dövlətin öz gücü hesabına aradan qaldırılması dünyada alternativi olmayan təcrübədir. O zaman təbii fəlakətlərdən zərər çəkənlər üçün 3 mindən artıq yeni, daha müasir evlər tikildi, sosial obyektlər inşa olundu.

Şamaxıda, Ağsuda, İsmayıllıda baş verən zəlzələnin yaratdığı fəsadlarla yerindəcə tanış olub, insanlara lazımi kömək göstərilməsi üçün vətəndaş təkliflərini əks etdirən tövsiyələr verən Prezident İlham Əliyev bu günlərdə zəlzələ bölgəsində aparılan işlərin gedişi ilə maraqlanmışdır.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şamaxıya səfəri insan amilinə göstərilən diqqətin ifadəsi idi. Ötən ilin 11 aprelində keçirilən prezident seçkilərində dövlət başçımıza etimad və inamını həmrəylikləri ilə bildirən insanlar görüşlərdə ehtiramlarını bir daha çatdırdılar.

Dövlət başçımızın qeyd etdiyi kimi, hər yerdə zəlzələ, daşqın olur. Amma inkişaf etmiş ölkələrdə belə dövlət təbii fəlakətlərdən zərər çəkənlərə kömək etmir. Fəsadlar vətəndaşın ödədiyi sığortalara uyğun aradan qaldırılır. İnsan amilinə dövlət tərəfindən təmənnasız diqqət də iqtisadi inkişafı ilə fərqlənən Azərbaycan təcrübəsinin nümunəsidir.

Zəlzələ baş verən bölgələrdə olarkən hər bir vətəndaşı dinləyən, qəzalı evlərdə yaranan vəziyyətlə tanış olan dövlət başçı-





mız Şamaxıya növbəti səfəri zamanı artıq tikilmiş yeni evlərin sakinləri ilə görüşdü.

Dövlət başçımıza məlumat verildi ki, Şamaxıda 244 ev kəskin qəzalıdır. Onlardan 96-sı şəhərdə, 35-i qəsəbələrdə, 113-ü kəndlərdə yerləşir. Qısa müddətdə zəlzələdən daha çox yararsız hala düşmüş 6 fərdi ev inşa olunur. Bəziləri artıq istifadəyə verilib.

Sakinlərlə görüşlərində hamının istək və arzularının yerinə yetiriləcəyini bildirən dövlət başçımız tikintisi aparılan evlərin inşası ilə də maraqlandı. “Şamaxı, Ağsu, İsmayıllı rayonlarında minlərlə ev tikiləcək və yenidən bərpa ediləcək. Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır. Bizim sosial siyasətimiz güclü siyasətdir və zəlzələdən ziyan görmüş bütün evlər dövlət vəsaiti hesabına tikiləcək və bərpa ediləcək” söyləyən Prezident İlham Əliyevin xalq tərəfindən dəstəklənən siyasətinə vətəndaş mövqeyi sakinlərin, ağsaqqalların ürək sözlərində də ifadəsini tapdı: “Mənim sözüm odur ki, sovet hökuməti 70 il çalışdı, şəhərlə kənd arasındakı fərqi aradan qaldırsın. Lakin bunu bacarmadı. Amma Prezident İlham Əliyev cənabları 15 il müddətində bu fərqi götürdü.”

İnsana diqqətin nümunəsi Şamaxının Şəhriyar qəsəbəsində yeni inşa olunan 4 saylı körpələr evi-uşaq bağçasının açılışı oldu. Heydər Əliyev Fondunun “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı”nın tətbiqi ilə respublikanın 60 şəhər və rayonunda, ümumilikdə, 13 min 625 yerlik 123 körpələr evi-uşaq bağçasının inşası nəzərdə tutulub ki, onlardan 80-i balaca sakinlərin istifadəsinə verilib. Cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilən 4 saylı bağça həmin proqram əsasında inşa olunan körpələr evlərindən biri idi.

Yeni ilin ilk günlərindən imzaladığı sərəncamları, fərmanları ilə ölkədə insan amilinə, əhalinin sosial müdafiəsinin daha etibarlı təminatına diqqətin artırıldığını əməli fəaliyyəti ilə bildirən cənab İlham Əliyevin zəlzələ bölgəsinə səfəri, vətəndaşlarla görüşü vədin reallığa çevrilməsinin ən bariz nümunəsidir.

11aprel 2018-ci ildə keçirilən prezident seçkilərindən dərhal sonra dövlət başçımızın imzaladığı ilk Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Həmin Fərmana əsasən vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilir. Artıq bu prosesin icrasına başlanılmışdır. Təqribən 10 mindən artıq ailə dövlət tərəfindən ayrılan bu vəsaiti almış və proses davam etdirilir. Bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına, onların ailələrinə göstərilən qayğı, sosial ədalət prinsipinin uğurudur.

Son günlərdə əmək haqqı və pensiyaların, tələbə təqaüdlərinin, məcburi köçkün və qaçqınlar, aztəminatlı ailələr üçün nəzərdə tutulan güzəşt və müavinətlərin artırılması, problemli kreditlərlə, çoxmənzilli binaların qeydiyyata alınması ilə bağlı göstərişlərin verilməsi ölkə vətəndaşlarının sosial müdafiəsinin təminatı istiqamətində aparılan siyasətin ən bariz nümunəsidir. İllərdən bəridir ki, məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olmuşdur, bu gün də belədir. Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilərək, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil inşa edilmişdir və bu proses davam etdirilir. Qarşıdakı illərdə bu kateqoriyadan olan bütün vətəndaşlar evlərlə təmin olunacaqlar.

Məntiqi nəticə isə budur: Ölkə iqtisadiyyatının inkişafı sosial islahatların tətbiqini sürətləndirir, əhalinin həyat səviyyəsi yüksəlir. “Beləliklə, iqtisadi göstəricilərimiz elədir ki, dünyanın istənilən ölkəsi bu göstəriciləri böyük qəhrəmanlıq kimi qəbul edə bilər, bizim üçün isə bu, adi haldır. Çünki bizim iqtisadi siyasətimiz düşünülmüş siyasətdir. Ümumiyyətlə, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir” söyləyən cənab İlham Əliyevin davam etdirdiyi islahatların analoqunun olmaması ölkəmizə beynəlxalq təşkilatların hesabatlarında verilən yüksək qiymət, respublikamızın adının yuxarı pillələrdə yer almasıdır.

Dövlət başçımızın sərəncamları əsasında 2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə daha qüdrətli ölkəyə çevirmək, mövcud olan nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaqdır. Zamanın çağırışı da belədir ki, daha güclü, qüdrətli dövlət qurmaq üçün aparılan məqsədyönlü, tutumlu siyasət insan amilinə, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, regional əməkdaşlıq təşəbbüslərinin dəstəklənməsinə xidmət etməlidir.

“Rossiya-24” telekanalına müsahibəsində Azərbaycanın inkişaf konsepsiyası və strategiyası ilə bağlı proqnozlardan söz açan cənab İlham Əliyevin “Mən əminəm ki, 2019-cu ildə ölkəmiz daha da inkişaf edəcək. Həyata keçirdiyimiz islahatların artıq xeyli hissəsi özünü 2019-cu ildə göstərəcək. Biz Azərbaycan iqtisadiyyatının transformasiyası prosesini bitiririk. Buna görə də düşünürəm ki, iqtisadi inkişaf cəhətdən bütün planlar reallaşdırılacaq. Dövlət büdcəsi də artıq qəbul olunub. O, həmişəki kimi sosialyönümlüdür. Buna görə də bütün sosial proqramlar həyata keçiriləcək. Biz məcburi köçkünlər və qaçqınlar üçün 4 mindən çox mənzil, Ermənistanla Azərbaycan arasında müharibə zamanı həlak olanların ailələri üçün 800-dən çox mənzil istifadəyə verməyi də nəzərdə tutmuşuq. Yəni bizim iqtisadiyyatımızın sosial yönümü çox əhəmiyyətli olacaq” sözləri aparılan sosial islahatlarda əksini tapıb.

Bir sözlə, Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən, bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirməyi bacaran, daim irəliyə addımlayan ölkə olduğunu son islahatları ilə də bəyan etdi.

**Xuraman İsmayılqızı, “İki sahil”**

# Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları BSU-da

**Martın 13-də Bakı Slavyan Universtetində (BSU) Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən "Xüsusi xidmət orqanları anlayışı, müasir dövrdə ölkəmizdə fəaliyyət göstərən pozucu qüvvələr, onların gənclər arasında fəaliyyəti" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları Zəhra Quliyeva, Babək Məmmədov, Ceyhun İbrahimov, Tural Məmmədov, İdris Cəfərli, Kamran Babayev iştirak ediblər.**







Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva onun mühüm bir məsələyə, dövlətimizin təhlükəsizliyinə həsr olunduğunu bildirib. O, DTX-nin 100 illik yubileyi ərəfəsində belə bir tədbirin keçirilməsini əlamətdar hadisə kimi dəyərləndirib. BSU rektoru ölkəmizin bugünkü uğurlu inkişafında, sabitliyin, əmin-amanlığın təmin olunmasında təhlükəsizlik xidməti orqanlarının böyük rolunu, onun təcrübəli əməkdaşlarının xüsusi əməyini minnətdarlıqla qeyd edib. O, dövlət təhlükəsizlik orqanlarının gənclərlə yüksək münasibətinin formalaşmasının ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətinin, ölkə Prezidenti İlham Əliyevin gənclərə qayğısının bariz nümunəsi olduğunu bildirib. N.Əliyeva dövlət başçısının gənclərlə bağlı son vaxtlar verdiyi Fərman və sərəncamların gənclərin həyat şəraitində və məişətində ciddi dəyişikliklərə səbəb olmağa başladığını deyib.

BSU-nun rektoru qeyd edib ki, Azərbaycan dövlətçiliyinin inkişaf və tərəqqisini gözü götürməyən bədxah qüvvələr öz çirkin niyyətlərini həyata keçirmək məqsədilə bu gün gənclərdən istifadə etməyə, onları öz planları üçün vasitəyə çevirməyə çalışırlar. Buna görə də rektor tələbə gəncləri ayıq-sayıq olmağa, dövlətçiliyin keşiyində mətanətlə dayanmağa çağırıb. O, Azərbaycanın güclü orduya malik olduğunu, istənilən anda hücuma keçib torpaqlarımızı azad etmək gücündə və qüdrətində olduğunu diqqətə çatdırıb. N.Əliyeva 2016-cı ildə baş tutan Aprel döyüşlərində belə bir şücaət və qəhrəmanlığa şahid olduğumuzu, qısa müddət ərzində əsgərlərimizin erməni qəsbkarlarını necə vahiməyə saldıqlarını gənclərə xatırladıb. Rektor Azərbaycanın dövlət rəhbərliyinin Dağlıq Qarabağ problemini sülh yolu ilə, beynəlxalq ictimaiyyətin təsiri ilə həll etmək niyyətində olduğunu gənclərin diqqətinə çatdırıb. Nurlana Əliyeva bu gün gənclərimizin qarşısında duran əsas məsələnin yüksək savada yiyələnmək, xarici dilləri mükəmməl öyrənmək olduğunu bildirib.

Sonra söz DTX-nin nümayəndəsi Tural Məmmədova verilib. T.Məmmədov "Xüsusi xidmət orqanları anlayışı, müasir dövrdə ölkəmizdə fəaliyyət göstərən pozucu qüvvələr, onların gənclər arasında fəaliyyəti" mövzusunda geniş məruzə ilə çıxış edib. O, xüsusi xidmət orqanlarının tarixindən, ümummilli lider Heydər Əliyevin təhlükəsizlik orqanlarında 25 illik fəaliyyətindən söz açıb. DTX tərəfindən həyata keçirilən təhlükəsizlik tədbirlərindən, o cümlədən bu tədbirlərdə sivil vətəndaşların rolundan danışıb. T.Məmmədov çıxışında, həmçinin xüsusi xidmət orqanlarının aşkar və gizli iş üsulları anlayışı, onun dövlət idarəçiliyində rolu, xarici xüsusi xidmət orqanları, onların Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti, beynəlxalq terrorçu təşkilatlar, narkomaniya və insan alveri kimi transmilli cinayətkarlıq mövzularına da toxunub.

Tədbirin davamında tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Nərgiz Nəcəfli**

# Mətbuat Şurasının qəzet yayımı ilə bağlı vəziyyəti öyrənən monitorinq qrupunun fəaliyyəti bərpa edilib




Dünən Azərbaycan Mətbuat Şurasında qəzet yayımı ilə bağlı hazırkı vəziyyət müzakirə olunub. Şuradan Trend-ə verilən məlumata görə, çıxış edənlər bildiriblər ki, şəhərin müxtəlif yerlərindəki köşklərin heç də hamısı təyinatı üzrə istifadə edilmir. Onların bəzilərində çox məhdud sayda qəzet olur.

Əsasən digər məhsullar satılır. Nəticədə qəzetə maraq azalır, redaksiyaların maddi durumu pisləşir. Paytaxtla yanaşı, mərkəzdən kənar yerlərdəki köşklər də tələblər səviyyəsindən aşağıdır.

İclasda həmçinin Bakı Metropoliteninin stansiyalarında, avtobus dayanacaqlarında, Beynəlxalq avtovağzalda və əhalinin sıx toplaşdığı digər yerlərdə qəzet satışı, əldə yayım işinin yaxşılaşdırılmasına ehtiyacın duyulduğu vurğulanıb.

Toplantıda qəzet yayımı ilə bağlı vəziyyətin detallarının öyrənilməsinin zəruriliyi önə çəkilib. Bu məqsədlə MŞ-nin vaxtilə mövcud olmuş monitorinq qrupunun fəaliyyəti bərpa olunub. Qrupun əldə etdiyi nəticələr Şuranın Katibliyinə təqdim olunacaq və qruplaşdırılacaq. Məsələ Mətbuat Şurasının İdarə Heyətində kütləvi informasiya vasitələrinin rəhbərlərinin iştirakı ilə geniş müzakirə olunacaq. Ümumən qəzet yayımı ilə bağlı MŞ adından aidiyyatı qurumlara müraciətin ünvanlanması nəzərdə tutulur.

## BƏHREYNDƏ ŞİST NEFT HASİLATINA BAŞLANILACAQ



Bəhreyn tezliklə şist neft hasilatına başlaya bilər. İlk şist neft qazma işlərinə bir neçə ay öncə başlanılıb.

Qazma şirkətləri ilə, həmçinin cari ilin son rübündə ilk dərin quyunun qazılması ilə bağlı danışıqlar aparılır.

Digər quyular isə gələcəkdə hasilatın artırılması üçün nəzərdə tutulub.

Bu məqsədlə Bəhreynin Milli Neft və Qaz İdarəsi gələn ay şist neft sahəsində ixtisaslaşmış beynəlxalq şirkətləri cəlb etmək, kəşfiyyat prosesi ilə tanış etmək və ən qısa zaman ərzində hasilata başlamaq üçün tanıtım kampaniyası təşkil etməyi nəzərdə tutub.

Milli Neft və Qaz İdarəsinin rəsmiləri həmçinin tezliklə ABŞ-a səfər etməyi nəzərdə tutur. Belə ki, onlar ABŞ-ın şist neft hasilatı sahəsində geniş təcrübəsindən yararlanmaq istəyirlər.

## BƏƏ HASİLATI AŞAĞI SALIB



"Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) qlobal neft bazarında vəziyyət sabitləşənə qədər neft hasilatını azaltmağa davam edəcək". Ölkənin enerji naziri Suhail Əl Mazroui belə deyib.

Xatırladaq ki, BƏƏ-nin də üzv olduğu OPEK təşkilatı və bir neçə digər neft hasilatı ölkəsi bazarda tələb və təklifi balanslaşdırmaq üçün hasilatı aşağı salmaq qərarına gəliblər.

Bazarda gündəlik olaraq neftin 1,2 milyon barrel azalmasına xidmət edən bu qərar yanvar ayının birindən qüvvəyə minib.

Lakin "Blumberq"in qiymətləndirməsinə görə, 21 ölkədən cəmi 10-u neft hasilatının azaldılması şərtinə əməl edib.

## "LUKOİL" YENİ STRATEGİYASINI PAYIZDA AÇIQLAYACAQ



Rusiyanın "Lukoil" enerji şirkəti təbii qaz strategiyasını yeniləyərək, cari ilin payızında ictimaiyyətə açıqlayacaq. Məlumatı şirkətin baş icraçı direktoru Vahid Ələkbərov yayıb. Rusiyanın ikinci ən böyük neft hasilatı şirkəti "Lukoil"un hazırda unikal resurs bazası var. Şirkət Qərbi Sibirdə, Xəzər dənizində və Rusiyanın mərkəzində çoxlu qaz rezervlərinə malikdir.

"Lukoil" qaz ixrac etmir, Qazı "Qazprom" şirkətinə satır. Ölkədə ixraca "Qazprom" nəzarət edir",-deyə Vahid Ələkbərov bildirib.

O qeyd edib ki, son vergi qanunları "Lukoil"un Qərbi Sibirdəki resurslarına yeni nəfəs verə bilər. Belə ki, şirkətin əsas ehtiyatları Qərbi Sibirdə yerləşir və orada neftə, qaza qoyulan vergilər ölkə üzrə ən yüksək həddədir.

## BU YAZIN AĞAC PAYI

Dızdipok kəndi Lerik rayonunda, uca dağların qoynunda yerləşir. Yazın yaxınlaşması buranı bambaşqa bir görkəmə salır. Mışıl-mışıl mürgüləyən ana torpaq oyandıqca kəndin hər yanı gözəlləşir. Hətta dərələrdən baş qaldıran bənövşə qoxusundan adam təbiətdən ayrılıb heç evə girmək istəmir. Günün gözü açar-açmaz dızdipoklular çölə çıxır, əkib becərməkdən doymurlar.

Kənddə ağacəkmə aksiyası da belə tədbirlərdən biri idi. Əsl bayram əhval-ruhiyyəsi yaşanan bu tədbirdə Dızdipokun dərə-təpələrinin, yamaclarının, düzənlərinin yaşıl örpəyinə yüzlərlə müxtəlif növ ağac və gül kolu əlavə olundu. Təkcə yol kənarlarında cərgələnən yeni tinglərin sayı beş yüzü ötdü. Mərkəzi bağda isə 400 tut və qoz ağacı əkildi. Aksiyanın sonunda mövcud ağacların ətrafında səliqə-sahman işləri görüldü.

Aksiya iştirakçıları ekoloji mühitin saflığına, gözəlliyinə xidmət edən belə tədbirləri müntəzəm olaraq həyata keçirməyi qərara aldılar.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# *Ekspert:* Tıxacı sırf nəqliyyatın çoxluğu ilə əlaqələndirmək olmaz

**Gündəlik olaraq nəqliyyat vasitələrindən istifadə edən hər kəsin bu mövzuda əsas problemlərindən biri də tıxaclardır. Xüsusən pik saatlarda daha çox müşahidə olunan tıxacların yaranmasına bir yox, əslində bir neçə səbəb zəmin yaradır. Daha çox paytaxt küçələrində müşahidə olunan vəziyyətə görə gecikmə halları, aqressiya, mübahisə, bəzən də qəza halları baş verir.**



Tıxacın yaranmasının səbəbləri nədir? Bu problemlərin çözülməsi üçün sürücülər və piyadalar nə etməlidirlər? **Nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki,** bu gün tıxac artıq bir mövzu kimi çox aktualdır: "Əslində bu problem bir deyil, bir neçə istiqamət üzrə həll olunmalıdır. Fikrimcə, başlıca səbəb məhz dayanma-durma qaydalarının pozulmasıdır. Nəticədə, bu hal bəzi küçələrdə özünü daha qabarıq büruzə verir . Dayanma-durmanı qadağan edən nişanlar olsa da, sürücülər çox zaman həmin yerlərdə avtomobillərini saxlayırlar. Hətta bəzi sürücülər tərəfindən zamanına iki və ya üçzolaqlı yolların sağ və ya sol kənarının dayanma-durma üçün məşğul edilməsi günün istənilən saatında tıxaca və avtonəqliyyat idarə edənlərdə aqressiyaya, əsəbə səbəb olur.Sürücülər məcbur olub alternativ yollar axtarmalı olur, paralel küçələrlə hərəkət etməyə çalışırlar. Bunu ən çox peşəkar sürücülər edə bilir .Əksəriyyət isə məcbur olub sonadək tıxacda gözləməli olur."

Ekspert qeyd edir ki, tıxacı sırf nəqliyyatın çoxluğu ilə əlaqələndirmək olmaz. Çünki insanlar da bəzən tıxac yarada bilirlər: "Bəli, tıxacın yaranmasının digər bir səbəbi də məhz insanların yol hərəkəti qaydalarını pozmalarıdır. Bəzən mərkəzi küçələrdə deyil, adi yollarda da tıxac yaranır. Xüsusən ticarət, satış mərkəzlərinin qarşısında, məktəblərdə. Bəzi obyektlərin avtodayanacağı olsa da, kiçik və orta müəssisələrdə yoxdur. Eləcə də məktəblərin. Valideynlər övladlarını məktəbə gətirib apararkən, insanlar satış mərkəzlərindən, mağazalardan çıxarkən avtomobildən minib-düşmək müəyyən vaxt alır. Sonda da piyadalara, maşınlara yol vermək məqsədilə tıxaclar yaranır."

Azər Allahverənov, həmçinin əlavə etdi ki, hər birimizin mütəmadi gediş-gəliş üçün istifadə etdiyimiz yollar olur. Hər hansı xüsusi gün, özəl tədbirlə bağlı yollar bağlandıqda başqa yollardan istifadə edirik .Beləliklə,həmin yollarda müəyyən yüklənmə olur, nəqliyyat sıxlığı yaşanır. Təmir-tikinti məqsədi ilə yollar tam bağlanmamalıdır. Nəqliyyat sıx olanda deyil, azalarkən təmir işləri gücləndirilməlidir. Bununla bağlı sürücülərin rahat hərəkət etməsi üçün şərait yaradılmalıdır. Mümkündürsə eyni əraziyə aparan paralel, alternativ yollar haqqında maarifləndirici tədbirlər görülsün, istənilən sürücü də bu təbliğat-təşviqat kampaniyasından xəbərdar olsun. Eyni yol üzərində dəfələrlə deyil, normal şəkildə bir dəfə, tam təmir aparılsın."

"Tıxacın yaranmasında sırf sürücülər deyil, piyadalar da məsuliyyət daşıyırlar. Ona görə də hər kəs bu mövzuda maariflənməlidir. Alternativ, paralel küçə və yollar haqqında məlumatlı olmalıdırlar. Xüsusən də fövqəladə, təcili hallarda istifadə edə bilmək üçün. Sükan arxasında səbirli olduğu qədər, çeviklik və diqqətli olmaq da lazımdır. Xüsusən də yeni başlayanlar və xanım sürücülər daha ehtiyatlı olmalıdırlar. Həm sürücülər bir-birinə, həm də piyadalara daha anlayışla yanaşsalar, daha yaxşı olar. Bəlkə tıxac səbəbilə yaranan qəzaların, mübahisələrin sayı da kəskin azalar", -deyə ekspert bildirdi.



**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı isə qeyd edi ki,** avtomobil alışı 2015-ci illə müqayisədə nisbətən aşağıdır: "Əslində vətəndaş sayı ilə müqayisə aparsaq paytaxt küçələrində çox avtomobil yoxdur. Lakin mövcud qaydaların həm sürücü, həm də piyadalar tərəfindən tez-tez pozulması nəticəsində tıxac yaranır. İşıqfor nizamladığı halda bəzən piyadalar buna baxmayıb avtomobildən yol verməyini istəyirlər, nəticədə arxadan gələn avtomobillərin hərəkəti dayanır, gözləyirlər və sıxlıq yaranır. Parklama üçün xüsusi yerlərin sayı artırılmalıdır, qiymətləri nisbətən aşağı olmalıdır. İri qabaritli yük maşınlarının sol zolaqda aşağı sürətlə hərəkət etməsi də səbəblərdən biridir. Tıxacda çox qalmaq təkcə insanlara deyil, avtomobilə də ziyandır. Bu zaman həm də çox benzin sərf olunur. Xüsusən də buraxılış ili köhnə olan maşınlarda tıxac zamanı qaynama halı baş verir. Bəzən tormozlanma gedir. Tıxac zamanı gözləmə sürücülərdə əsəbilik və səbirsizlik yaradır. Nəticədə həm o an, həm də gün ərzində gərgin vəziyyətdə olurlar. Əslində hər bir ölkədə tıxac var,lakin paytaxt küçələrində sadaladığım səbəblər ucbatından bəzən bu hal ifrat səviyyəyə çatır."

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Vidadi İsgəndərlinin erməniсə "moizələri"

**Avropaya sığınan antimilli ünsürlərin yalanları və sərsəmləmələri artıq hədd-hüdud tanımır. Onların bəzilərinin yalan fantaziyaları o qədər "genişlənib" ki, söylədiklərini adi məntiqlə anlamaq və izah etmək mümkün olmur.**


НОВЫЕ ИЗВЕСТИЯ Видади Искендерли заговорил "по-армянски"

Видади Искендерли заговорил "по-армянски"

Вчера, 16:34 В мире

Бывший прокурор из Баку Видади Искандерли, бежавший из Азербайджана сначала в Грузию, а затем получивший убежище во Франции, не перестаёт удивлять своими агрессивными и провокационными «проповедями» на Ютьюбе. На сей раз Искендерли привёл свою версию событий в Нагорном Карабахе.

С его слов, эта территория стала якобы разменной картой при

Avropadakı "söyüş çətəsi"nin ruporlarından biri olan Vidadi İsgəndərli isə yalanları ilə həmfikirlərini çox geridə qoyub. Onun son hədyanlarına rusiyalı yazar Oleq Nikolayev tutarlı cavab yazıb. Rusiyalı yazarın V. İsgəndərliyə cavab yazması təsadüfi deyil. "Söyüş çətəsi"nin ruporu "Youtub"dakı son çıxışı ümummilli lider Heydər Əliyevin adına qarayaxmalarla "zəngindir". V. İsgəndərli Ulu Öndərin "Əsrin müqaviləsi"nin imzalanması ilə bağlı xidmətlərinə kölgə salaraq bu böyük hadisəni Rusiya ilə hansısa siyasi "razılaşmaların" nəticəsi adlandırıb.

O. Nikolayev sözügedən cavab məqaləsində V. İsgəndərlinin keçmişi ilə bağlı tutarlı faktlar açıqlayaraq onun əslində haradan "qidalandığını" əsaslı şəkildə isbat edib. Məlum olur ki, V. İsgəndərlini bu gün Azərbaycanın əleyhinə fəal iş aparan bəzi ermənilərlə "uzun və möhkəm tellər" bağlayır. Gəncliyində Xarkov Hüquq İnstitutunda hüquqşünas təhsili alarkən o, Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın yaxın qohumu Sergey Akopyan və Rusiyada vəkillik fəaliyyəti ilə məşğul olan Araz Mirzobekyanla bir qrupda oxuyub. Hətta yaxın dostlar kimi onlar tələbə yataqxanasında da eyni otağı bölüşüblər. Əlbəttə, ilk baxışda bu fakt adi görünə bilərdi, çünki keçmiş SSRİ-də təhsil alanların hər birinin müxtəlif xalqlardan tələbə yoldaşlarının olması təbiidir. Lakin İsgəndərlinin erməni lobbisinin güclü olduğu Fransada rahatlıqla siyasi sığınacaq alması və burada yüksək səviyyədə yaşayışını təmin etməsi bu "dostluğun" sadəcə tələbə yoldaşlığı ilə bitmədiyini düşünməyə əsas verir. Müəllif qeyd edir ki, hər üç tələbə yoldaşının sonradan iş taleyi ayırsa da, onların dostluq münasibətləri bu gün də davam edir.

O. Nikolayev yazısında V. İsgəndərlini rusiyalı siyasi mühacir Vladislav Maltsevlə müqayisə edir. Lakin burada da İsgəndərli Maltsevə "uduzur". Müəllif vurğulayır ki, insaf naminə V. Maltsevin fikirləri səhv də olsa özünə aiddir. O, Rusiyadakı siyasi rejimi tənqid edir və onun tezliklə dəyişəcəyini bildirir. V. İsgəndərli isə bilavasitə ermənilərin, dostları S. Akopyan və A. Mirzobekyanın "ağzı ilə danışır". İsgəndərli özü də bunu etiraf edərək deyir ki, hələ ötən əsrin 80-ci illərinin sonlarında erməni millətindən olan tələbə yoldaşları onun "gözlərini açıblar". Heydər Əliyev və onun Azərbaycanla bağlı planları barədə guya çox mühüm "sirləri" hələ o illərdə V. İsgəndərliyə məhz erməni dostları deyiblər.

Burada artıq sözə və izaha ehtiyac yaranmır. Çünki İsgəndərli özü etiraf edir ki, bu "böyük faktları" ona ermənilər söyləyiblər. Məntiqi olaraq belə bir qənaətə gəlmək olur ki, ermənilər hər zaman çəkindikləri və ehtiyat etdikləri Heydər Əliyev şəxsiyyəti barədə yaxşı heç nə deyə bilməzdilər. Əsas məsələ odur ki, V. İsgəndərli də ermənilərin dili ilə danışır. Belə olan halda sual yaranır: ermənilərin mövqeyi məlumdur, bu, düşmən mövqeyidir. Bəs Vidadi İsgəndərli kimdir? Düşmən, yoxsa...

**Taleh Turqut,**
***"İki sahil"***

# "Bakcell"dən gənclərin məşğulluğunun artırılmasına növbəti töhfə



"Bakcell" şirkəti "ASAN Kadr" Karyera mərkəzinin 2-ci Karyera sərgisində iştirak edib.

Bakı Ali Neft Məktəbində keçirilmiş sərgidə, ümumilikdə 80-dən çox müəssisə təmsil olunub. Karyera sərgisinin əsas məqsədi ASAN könüllüsü olmuş, o cümlədən savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin məşğulluq imkanlarını artırmaq, vətəndaşların işlə təmin olunmalarına dəstək göstərmək, habelə müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat verməyi üçün şərait yaratmaqdır.

Sərgi zamanı gənclərə "Bakcell" şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan "Bakcell" şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına mütəmadi olaraq dəstək göstərir. Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, müvafiq dövlət strukturları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük və ən innovativ şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanır.

# Vassaldan Avropa ölkəsi olmaz

**Ermənistanın baş naziri son günlərdə verdiyi açıqlamalarla bir daha göstərir ki, onun Dağlıq Qarabağ münaqişəsinin həllinə dair konkret planı yoxdur və hələ də bu istiqamətdə spekulyasiya ilə məşğuldur. Onun ATƏT-in Minsk qrupunun mövcud formatından imtinasına və yeni variantların axtarılmasına dair fikirləri həm Azərbaycanda, həm də ATƏT-də etirazla qarşılandı.**





N.Paşinyan KİV-ə açıqlamalarında bildirir ki, qondarma rejimin əhalisi danışıqlarda tərəf kimi iştirak etməlidir. Onda bu rəzil erməni liderinə sual olunur: Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Dağlıq Qarabağın Azərbaycanlı icmasına qarşı qanlı etnik təmizləmə aparıldığı və Xocalı kimi bir soyqırımı törədildiyi halda o hansı haqla buradakı erməni icmasına ekskluziv hüquqlar tələb edir? Axı, bu, insan haqlarına, beynəlxalq hüququn bütün norma və prinsiplərinə tamamilə ziddir və ədalətsiz yanaşmadır. Halbuki 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağda 100 mindən çox azərbaycanlı əhali yaşayırdı.

Bu arada ölkəmiz üçün bir önəmli faktı da qeyd etmək lazımdır ki, Avropa İttifaqının yüksək rəsmiləri bildiriblər ki, yeni formatın yaradılmasına ehtiyac yoxdur və razılaşdırılmış variantlara alternativ axtarmaq mənasızdır. Bu, əslində Nikol Paşinyana ciddi mesajdır ki, artıq bu istiqamətdə ciddi addımların atılmasının zamanı çatıb.

Nikol Paşinyan hakimiyyəti bir çox hallarda özünü Avropaya meyilli kimi göstərir. Hətta onun bir müddət əvvəl ölkəsindəki Rusiya hərbi bazasının Ermənistandan çıxarılmasına yönəlik fikirlərini də hökumətindəki bir çox məmurlar dəstəkləyiblər. Xüsusilə Ermənistanın müdafiə naziri David Tonoyan da bu istəyi açıq şəkildə dilə gətirərək 102-ci hərbi bazanın statusunun dəyişdirilməsini sətiraltı ifadə edib. Ötən ilin payızında Ermənistanın Panik kəndində rus hərbçilərinin təlimləri belə Ermənistan rəhbərliyinin sərt reaksiyası ilə qarşılaşmışdı və rəsmi şəkildə Rusiyanın əleyhinə çoxsaylı bəyanatlar səslənmişdi. Hətta baş nazir Nikol Paşinyan Moskvanı rəsmi münasibət bildirməyə çağırdı. Lakin sonradan fikirlərində bəzi dəyişikliklər etdi.

Bəs görəsən Ermənistan müdafiə nazirinin səsləndirdiyi antirusiya bəyanatlarının arxasında nə gizlənir? Rusiyalı politoloqlar hesab edirlər ki, Paşinyan hökuməti Avropadan pul qopartmaq üçün ikili oyun oynayır. Eyni zamanda, göstərmək istəyir ki, onun hakimiyyəti ölkəsini Rusiyanın orbitindən çıxarmağa çalışır.

Erməni mətbuatı yazır ki, Moskva Ermənistanı sözəbaxan, Rusiyanın sözü ilə oturubduran ölkə kimi görmək istəyir: "Lakin Rusiya bir dəfə də olsun Ermənistanı xilas etməyib, əksinə, onu yalan vədlərlə doyuzdurub, Azərbaycanla münasibətləri qabardıb. İndi isə biz Rusiya ilə bərabərhüquqlu tərəfdaşlıq istəyirik."

Məhz ötən il Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın həbsi Rusiyanın hakim dairələrində birmənalı qarşılanmadı. Ruslar bunu Qərbin əlinə oynayan Paşinyan hakimiyyətinin Rusiyaya təzyiq vasitəsi kimi yozdular. Çünki həm Koçaryan, həm də Sarkisyan Rusiyanın ən sadiq köpəkləri olublar.

Təbii ki, Ermənistanın Avropa Birliyinə qoşulmaq istəyi heç də göründüyü kimi sadə deyil. Avropa Birliyi isə ərazilərində münaqişə olan dövlətləri öz sıralarına qəbul etmək niyyətində deyil. Bu səbəbdən də ilk növbədə Ermənistandan Dağlıq Qarabağ münaqişəsini birdəfəlik həll etməyi tələb edirlər. Bütün beynəlxalq normativlərə əsasən isə problem Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bunun digər variantı isə sadəcə mümkün deyil.

Bir sözlə, bu gün Avropada Ermənistana qarşı mənfi münasibət dəyişməyib. Bu, özünü Nikol Paşinyanın son bir ayda inanələr üçün Avropaya etdiyi səfərlərin uğursuzluğunda da göstərdi. Əliboş qayıdan Paşinyan ölkəsinin geosiyasi mövqelərinin hələ də zəif olduğunu bir daha anladı. Eyni zamanda, Avropa Ermənistanı Rusiyanın vassalı kimi dəyərləndirərək hələ də onu ciddi dövlət kimi qəbul etmədiyini büruzə verdi.

**Elçin Zaman,**
***"İki sahil"***

# EKSPERT: Növbəti aylarda da yeni islahatları müşahidə edəcəyik



2019-cu ilin ötən dövrü ərzində Azərbaycanda sosial müstəvidə həyata keçirilən islahatlar cəmiyyətdə böyük razılıqla qarşılanmaqla bərabər, əhalinin rifah halına da əsaslı şəkildə təsir göstərməkdədir. Xüsusən də Prezident İlham Əliyevin vətəndaşların sosial rifahının yüksəldilməsinə xidmət edən Fərman və sərəncamları reallaşdırılan böyük sosial islahatlar paketinin mühüm tərkib hissəsidir. Həmçinin dövlət başçısı sosial tədbirlərin davam etdirilməsi üçün müvafiq addımların atılması istiqamətində də tapşırıqlar verib. Təbii ki, atılan bu addımlar, görülən işlər bir daha təsdiq edir ki, Azərbaycanda sosial siyasət sistemli və yüksək səviyyədə həyata keçirilir.

**İqtisadçı ekspert Vüqar Bayramov mövzu ilə bağlı qəzetimizə açıqlamasında qeyd etdi ki,** Azərbaycan 2019-cu ilə struktur islahatları ilə yanaşı, sosial sferada aparılan islahatlar və sosial təminatın gücləndirilməsi ilə daxil olub: "2019-cu ildə bu sahələrdə aparılan islahatlar iqtisadi inkişafın daha da dayanıqlı olmasını təmin edir. Eyni zamanda, vətəndaşların iqtisadi islahatlardan daha çox faydalanmasına imkan yaradır. Bu baxımdan Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirə ilin ötən dövründə həyata keçirilən fəaliyyətləri və islahatları qiymətləndirməklə yanaşı, növbəti aylar üçün də prioritetləri müəyyənləşdirdi".

V.Bayramov vurğuladı ki, cari ilin ötən dövrü sosial təminatın gücləndirilməsi baxımından yadda qaldı: "Bir tərəfdən minimum əməkhaqqı, pensiyalar artırıldı, sosial sferada vətəndaşları maraqlandıran kifayət qədər ciddi və əhəmiyyətli işlər görüldü. Eyni zamanda, istismara alınmayan binaların istismara alınması ilə bağlı dövlət başçısı tərəfindən imzalanan müvafiq Fərmana uyğun olaraq bina evlərində yaşayan mənzil sahiblərinin çıxarışla təmin olunması ilə bağlı aparılan tədbirlər xüsusilə qeyd olunmalıdır".

Ekspertin sözlərinə görə, əsas məsələlərdən biri də problemli kreditlərin həll edilməsi ilə bağlı ölkə başçısı tərəfindən müvafiq Fərmanın imzalanması oldu: "Düşünürəm ki, bu istiqamətdə müəyyən addımın atılması vətəndaşlarımızı daha çox narahat edən məsələlərdən birinin yaxın zamanlarda həll edilməsi anlamına gəlir. Praktiki olaraq bu, ondan xəbər verir ki, hazırda Azərbaycan vətəndaşını maraqlandıran sosial məsələlər dövlət başçısının diqqət mərkəzindədir. Xüsusən son aylar sosial təminatın gücləndirilməsi ilə bağlı atılan addımlar, ölkə başçısı tərəfindən fərqli problemlərin araşdırılması və həll edilməsi ilə bağlı verilən göstərişlər vətəndaşların sosial təminatının gücləndirilməsi, bütövlükdə iqtisadiyyatın inkişafı baxımından çox vacibdir. Biz növbəti aylarda da iqtisadi və sosial sferada yeni islahatların aparılmasını müşahidə edəcəyik".

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Naxçıvan Bölməsində "Elm həftəsi"



AMEA Naxçıvan Bölməsində Elm Günü ilə əlaqədar olaraq "Elm həftəsi"nə həsr olunan tədbirlər davam edirilir.

Bu münasibətlə keçirilən növbəti tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək ölkəmizdə elmin inkişafının daim dövlətin diqqət mərkəzində olduğunu bildirib. Elmin inkişafının ölkənin sosial-iqtisadi və mədəni inkişafı ilə sıx əlaqədar olduğunu deyən alim qeyd edib ki, əsası dahi öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Respublikasının elm siyasətini bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İsmayıl Hacıyev ölkəmizdə uğurla həyata keçirilən elm siyasətinin Naxçıvan Muxtar Respublikasında da dəstəkləndiyini, bu diyarda elm adamlarına yüksək diqqət və qayğının göstərildiyini vurğulayıb.



Daha sonra İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev rəhbərlik etdiyi müəssisə haqqında məlumat verib. Bildirib ki, Naxçıvanın mədəni mühiti, maddi və mənəvi mədəniyyətinin tədqiqini qarşısına məqsəd qoyan institut 2009-2018-ci illər ərzində Naxçıvanın ədəbi mühiti, mədəni həyatı, onomastikası, memarlığı, təsviri sənəti, folkloru kimi mühüm sahələri tədqiq edib, ciddi elmi nəticələr və çoxsaylı elmi əsərlər ortaya qoyub.

İnstitutda həyata keçirilən elmi tədqiqat işlərinin nəticəsindən bəhs edən Əbülfəz Quliyev qeyd edib ki, 2009-2018-ci illərdə əməkdaşların 1962 elmi əsəri çap edilib. Naxçıvanın mədəni mühiti, maddi və mənəvi mədəniyyətinin tədqiqi problemi üzrə 20 elmi nəticə əldə olunub. Bundan başqa, Naxçıvan ədəbi, mədəni və folklor mühitinə dair 3 cildlik "Naxçıvan folklor antologiyası", "Naxçıvan teatrının salnaməsi"; "Dədə-Qorqud yurdu Naxçıvan" tarixi-coğrafi və etnoqrafik Atlas, o cümlədən Naxçıvan əhalisinin etnogenezi tarixindən bəhs edən fundamental əsərlər, görkəmli şəxsiyyətlərin həyatı və yaradıcılığını əhatə edən "taleyi və sənəti" seriyasından 13 adda kitab və sair elmi əsərlər nəşr edilib.

Bildirilib ki, Prezident yanında Elmin İnkişaf Fondunun elan etdiyi kompleks elmi-tədqiqat işlərinin qrant layihələri müsabiqəsində institutun "Azərbaycançılıq ideologiyası işığında Naxçıvan ədəbi mühiti, folkloru, dialekt və şivələri və yer adlarının toplanması, kompleks tətbiqi və nəşri" mövzusundakı layihəsi qalibi olub.

Tədbirin sonunda iştirakçılar İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun 2009-2018-ci illər ərzindəki fəaliyyətini əks etdirən elmi nəşrlərdən ibarət sərgi ilə yaxından tanış olublar.

**Esmira Verdiyeva**

# *Sumqayıtda yeni istehsal müəssisəsi:* 100-ə yaxın şəhər sakini işlə təmin olunub



Sumqayıt şəhərində “AZPAL” Qapalı Səhmdar Cəmiyyətinə (QSC) məxsus yeni istehsal müəssisəsinin açılışı olub. Açılış mərasimində Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, “Baku Steel Company” Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının sədri Rasim Məmmədov və digər məsul şəxslər iştirak ediblər.

İstehsal müəssisəsi işə salındıqdan sonra burada çalışan işçilərlə görüşən Zakir Fərəcov bildirib ki, ölkə Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi kursa uyğun olaraq reallaşdırılan sənayeləşmə siyasəti uğurla davam edir: “Qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, iqtisadiyyatın inkişafına mühüm töhfələr verir. Belə layihələrin icrası ilk növbədə yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına səbəb olur. Eyni zamanda, idxaldan asılılığı azaltmaqla, ixracyönümlü məhsulların həcminin artırılmasına böyük təsir göstərir.”



Vurğulanıb ki, metallurgiya şlaklarının təkrar emalı üçün mövcud avadanlıqlar ölkəmizdə ilk dəfə olaraq Sumqayıt şəhərindəki bu müəssisədə quraşdırılıb. Sənaye tullantılarının təkrar emalı müəssisəsinin istifadəyə verilməsi Sumqayıt şəhəri üçün mühüm iqtisadi və ekoloji əhəmiyyət kəsb edir. Belə ki, yeni müəssisənin istifadəyə verilməsi nəticəsində illər boyu burada yığılmış metallurgiya şlaklarının təkrar emalı həyata keçiriləcək. Təkrar emal nəticəsində çınqıl, tikinti qumu və dəmir qalıqları ayrılaraq müxtəlif sahələrdə, eyni zamanda, yol tikintisində istifadə olunacaq.

Qeyd olunub ki, müəssisədə ilkin mərhələdə 100-ə yaxın şəhər sakini işlə təmin olunub.

Orxan Vahidoğlu, *“İki sahil”*

# Heç kim unudulmur



2019-cu ilin başlamasından qısa müddət ərzində demək olar ki, elə bir sahə qalmayıb ki, vətəndaşlarımızın həyat səviyyəsinin yüksəldilməsi üçün müəyyən addımlar atılmasın. Əfqanıstan müharibəsi veteranları da bu diqqətdən kənarda qalmayıb. Belə ki, fevralın 21-də dövlət başçısı İlham Əliyev “Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında” Fərman və Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb.

Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş Yaşar Muradovun qardaşı, 2-ci qrup Qarabağ əlili, sabiq polis serjantı Azər Muradov mövzu ilə bağlı “İki sahil” qəzetinə açıqlamasında bildirdi ki, şübhəsiz, bu, ölkə başçısının Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olanların ailələrinə, həmçinin Əfqanıstan müharibəsi veteranlarına göstərdiyi diqqət və qayğının daha bir göstəricisidir: “Daha doğrusu, dövlətimizin başçısı bir daha təsdiq etdi ki, o, həmişə vətəndaşların yanındadır. Bu Sərəncam və Fərman bizim ailəmizdə də razılıqla qarşılanıb. Əfqanıstan müharibəsində həlak olmuşların ailələrinə, həmçinin veteranlara göstərilən bu ali diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığımızı bildirirəm”.

Azər Muradov, həmçinin vurğuladı ki, qardaşının adı da əbədiləşdirilib: “Artıq neçə ildir ki, Mingəçevirdəki 11 saylı orta məktəb “Lenin” ordeni və “İgidliyə görə” medalı ilə təltif olunmuş sıravi əsgər Yaşar Muradovun adını daşıyır. “Nur şəhəri”ndə onun adını daşıyan küçə də var. Amma məzarı baxımsızlıq ucbatından pis vəziyyətdədir. Mənim də imkanım yoxdur ki, ona əl gəzdirim. Güman edirəm ki, aidiyyəti qurumlar qardaşımın məzarını da diqqətdən kənarda qoymayacaqlar”.

Yaşar Muradov haqqında ətraflı məlumat verən həmsöhbətimiz qeyd etdi ki, qardaşı Yaşar İsfəndiyar oğlu Muradov 16 noyabr 1967-ci ildə Tərtər rayonunun Seydimli kəndində anadan olub: “Birinci sinfi öz doğma kəndində oxuyub. 1975-ci ildə Muradovlar ailəsi Mingəçevirə köçüb, həmin ildən Y.Muradov 11 saylı məktəbdə təhsilini davam etdirib. 16 aprel 1986-cı ildə Mingəçevir Şəhər Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 1987-ci il oktyabrın 31-də həlak olub. Onu da deyim ki, qardaşım Yaşar sovet qoşunlarının tərkibində Əfqanıstana getməyini bizdən gizlətmişdi. Bunu ailəmiz sonradan bilmişdi”.

Azər Muradov söhbət zamanı dedi ki, hazırda xalqımızın bir problemi var: “O da ərazilərimizin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsidir. Əminəm ki, bu məsələ də öz həllini tapacaq. Artıq bu, bir həqiqətdir ki, iqtisadiyyatımız yüksəldikcə ordumuz daha da güclənir. Bu gün Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olunmasa, Azərbaycanın tezliklə ərazi bütövlüyünü də bərpa edəcəyi, üzləşdiyi təcavüzkarlığa birdəfəlik son qoyacağı məndə əsla şübhə doğurmur.

Onda mən də bir veteran kimi bu ordunun lap ön sıralarında olacağam. Yeri gəlmişkən, qeyd edim ki, əmisinin adını daşıyan oğlum Yaşar hazırda hərbi xidmətdədir. Oğlumun da döyüş əzmkarlığı yüksəkdir”.

Qvami Məhəbbətoğlu, *“İki sahil”*

# ATƏŞKƏS 22 DƏFƏ POZULUB



Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qızılhacılı, Tovuz rayonunun Ağdam kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# *Cavid Osmanov:* Sifarişi dağıdıcı müxalifətə məkrli xarici dairələr verir

**Bu gün olmayan başını itirmiş dağıdıcı müxalifətdə kimin ağlına nə gəlir onu da edir. Başqa ölkələrdə həyata keçirilən mitinq və digər aksiyalardan ruhlanan dağıdıcılar bu gün də sosial şəbəkələrdə Əlcəzairdəki mitinqlərdən görüntülər yaymaqla məşğuldurlar. Guya bu hərəkətləri ilə xalqa çağırış edirlər. Uzun illərdir başqa ölkələrdə baş verən inqilablardan vəcdə gələn bu məlunlar hələ də başa düşmürlər ki, xalq onları yaxşı tanıyır.**

“Dabbaqda gönlərinə də bələddir”. Xalq yaxşı bilir ki, Əli Kərimli və onun əlaltıları hakimiyyətə qarşı hər cür destruktiv dairələrlə əməkdaşlığa hazırdır və xaricdəki havadarları ölkəmizdəki ictimai-siyasi sabitliyi pozmağı bir vəzifə kimi onun qarşısına qoyublar. Hər zaman Əli Kərimli xarici anti-Azərbaycan dairələrdən aldığı pullarla ölkəmizə, müstəqilliyimizə qarşı mübarizə aparan erməni lobbisi ilə bir səngərdə yer alıb. Erməniپərəst qüvvələrdən qidalanan bu ünsürlərin başlıca məqsədi xalq arasında qarşıdurma, xaos yaradaraq ölkəmizi zəiflətməkdən ibarətdir. Hər bir Azərbaycan vətəndaşı yaxşı bilir ki, Əli Kərimlinin populist çıxışları onun şəxsi illüziyalarından başqa bir şey deyil.

Milli Məclisin deputatı Cavid Osmanov İkisahil.TV-yə açıqlamasında bildirdi ki, ölkəmizdə olan dinc və sabit həyat tərzinə qarşı çıxan satqın və xəyanətkarlar heç zaman unudulmur, yaddan çıxmır. AXC-Müsavat hakimiyyətinin bəzi təmsilçiləri istər iqtidarda olduqları dövrdə, istərsə də müxalifətdə olduqları zaman yalnız antimilli, dağıdıcı mövqe tutublar. Əli Kərimli kimilər Azərbaycanın siyasi tarixinə satqın və xəyanətkar kimi düşmüşdür. Hər zaman xalqın nifrətinə tuş gəldikləri üçün bütün ümidlərini xaricdə olan, müstəqil Azərbaycanın varlığına qarşı çıxan qüvvələrə bel bağlayıblar. Onlardan aldıqları pullar hesabına ölkədə sabitliyi pozmağa cəhd edirlər. Ölkədə aparılan islahatları dəyərləndirmək əvəzinə ancaq antitəbliğatla məşğuldurlar. Çünki onlar ölkə Prezidentinin nüfuzunun xalq arasında daha da artmasından narahatdırlar.

C.Osmanov qeyd etdi ki, antimilli ünsür üçün Vətən, dövlət və xalq anlaşıyı yoxdur. Onlar üçün əsas olan xaricdən gələn qrantlardır ki, ölkəmizdə qarışıqlıq yaratsınlar. Dəfələrlə olub ki, AXCP-dən istefa verən şəxslər bildiriblər ki, Əli Kərimli Azərbaycan xalqının maraqlarını deyil, başqa-başqa dövlətlərin, qurumların, xüsusilə erməni lobbisinin maraqlarını həyata keçirməklə məşğuldur.

Sosial şəbəkələrdə dağıdıcı fəaliyyətlərini davam etdirən bu antimilli mikroblar ölkəmizin əleyhinə təbliğat aparmaqla xaricdəki ermənipərəst “ağalarından” qrant almaqla məşğuldurlar.

Milli Məclis deputatı xüsusi olaraq vurğuladı ki, anti-Azərbaycan qüvvələrin ölkəmizdə keçirilən tədbirləri siyasiləşdirmək, Azərbaycana qarşı “piar” kampaniyası aparmaq, ölkəmizi nüfuzdan salmaq cəhdləri həmişə uğursuzluqla nəticələnib. Əli Kərimli və onun ətrafındakı ünsürlər başa düşməli-



dirlər ki, onların Azərbaycandakı sabitliyi pozmağa gücləri çatmayacaq. Çünki ölkədə sabitliyi pozmağa xidmət edəcək aksiyalara cəmiyyətdən sifariş yoxdur. Sifarişi dağıdıcı müxalifətə məkrli xarici dairələr verir. Bu məsələ ilə bağlı Prezident İlham Əliyev bildirib: “Azərbaycan xalqı çox yaxşı bilir ki, bu gün özünü müxalifət adlandıran bir dəstə xaricdən idarə olunur. Onlara xaricdən komandalar verilir. O komandalar nəticəsində müəyyən dövrdə hərəkətə keçirlər, fəallaşırlar. Sonra da görəndə ki, mitinqlərinə min nəfərdən az adam gəlir, necə deyərlər, suyu süzülə-süzülə yenə kənara çəkilirlər. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı xaricdən idarə olunan ünsürlərin - “beşinci kolon”un ölkəmizdə hansısa mövqelərə sahib olmasına heç vaxt imkan verməyəcək.”

Şəmsiyyə Əliqızı, *“İki sahil”*

# Azərbaycan: investisiya cəlbediciliyini qoruyan və sərmayə yatıran ölkə



“Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni bu onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaqdır.”

Azərbaycanın investisiya cəlbediciliyini şərtləndirən əsas amil ölkəmizdəki sabitlik və normal investisiya mühitinin yaradılmasıdır. Bu fakt inkaredilməzdir ki, hər bir dövlət, şirkət bu və ya digər ölkənin iqtisadiyyatına investisiya yatırarkən ilk növbədə demokratik inkişafın əsas göstəricilərindən olan sabitliyə xüsusi diqqət göstərir. Qoyulan investisiyanın təhlükəsizliyinin təminatı bütün dövrlər üçün aktuldır. Bu xatırlatmanı da edək ki, müstəqilliyimizin ilk illərində ölkəmizdə ictimai durumun gərginliyi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasına maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olmuşdu. Baxmayaraq ki, zəngin təbii resurslara və coğrafi məkana malik olan Azərbaycana bütün dövrlərdə diqqət və maraq olub. Bu marağın 1993-cü ildən, yəni ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitliyin, normal biznes mühitinin yaradılmasından sonra daha da artdığı inkaredilməzdir. Ümummilli Lider Azərbaycanın “açıq qapı” siyasəti həyata keçirdiyini önə çəkərək xarici iş adamlarına bu çağırışı etmişdir ki, ölkəmizin qapıları bura xoş niyyətlə ayaq basan hər bir investora açıqdır. İş adamları qoyacaqları investisiyaların təhlükəsizliyinə tam əmin ola bilərlər. Bu günün statistikasına müraciət etsək, hazırda ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 250 milyard dollara yaxındır. Bu rəqəm Azərbaycanın bu gününə və gələcəyinə inamın göstəricisi olmaqla yanaşı, yaradılan bazanın möhkəmliyinin nümayişidir. Dövlətimizin başçısı İlham Əliyevin bütün çıxışlarının mahiyyətində dayanan “Sabitlik bütün inkişafın əsasıdır” tezisi Azərbaycanın bugünkü reallıqlarında öz təsdiqini tapır. Azərbaycan beynəlxalq aləmdə sabitləşdirici faktor kimi tanınır və nüfuz qazanıb. Ölkə Prezidenti bu fikri də böyük əminliklə qeyd edir ki, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Ölkəmizdə mövcud olan sərmayə iqlimi xarici investorları həvəsləndirir.

Bu gün fəxrlə qeyd etdiyimiz reallıqlarımızdan biri də budur ki, Azərbaycan nəinki neft-qaz, eyni zamanda, qeyri-neft sektoru sahəsində mövcud imkanları ilə dünyanın diqqətindədir. Dövlətimizin başçısı İlham Əliyevin “İqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır” tapşırığı regionların malik olduğu potensial imkanlardan səmərəli istifadənin prioritetliyini aktuallaşdırdı. Bu günə qədər regionların sosial-iqtisadi inkişafı ilə bağlı üç Dövlət Proqramı uğurla icra edilib, növbəti 2019-2023-cü illər üçün dördüncü sənəd təsdiqlənib. Dövlət proqramlarında habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və bunların fonunda əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına səbəb olub. 2004-2018-ci illərin sosial-iqtisadi göstəricilərinə nəzər yetirək. Ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik və yoxsulluq 5 faizə enib.

Cənab İlham Əliyevin çıxışlarında bu müqayisəli təhlili də diqqətə çatdırır ki, ilk dəfə Azərbaycan Dünya Bankının “Doing Business” hesabatında 2006-cı ildə qeyd olunub. O zaman Azərbaycan 98-ci yerdə qərarlaşmışdı. Aparılan köklü islahatlar, investisiya mühitinin yaxşılaşdırılması nəticəsində son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir: “Yəni bu, deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar. Beləliklə, bu sərmayə imkan verəcək ki, bundan sonra da iş yerləri, yeni müəssisələr yaradılsın və ölkəmiz inamla inkişaf etsin.” Ölkə Prezidenti bu müqayisəni də aparır. Bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Xarici borc 22,8 faizdən 19 faizə düşüb. Qarşıya vəzifə qoyulub ki, bu borcu yaxın illərdə daha da azaldaq: “Düzdür, 19 faiz də indi dünya miqyasında çox gözəl göstəricidir. Elə ölkələr var ki, xüsusilə inkişaf etmiş ölkələr orada xarici borc ümumi daxili məhsulun 100-120 faizini təşkil edir. Əgər hansısa ölkədə 50 faiz təşkil edirsə, o ölkə sabit, iqtisadi cəhətdən sabit ölkə kimi tanına bilər. Bizdə isə 19 faizdir, mən hələ bunu çox görürəm. Hesab edirəm ki, bu, daha da düşməlidir və düşəcəkdir. Əlbəttə, əgər xarici borcumuzu valyuta ehtiyatlarımızla müqayisə etsək görərik ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, istənilən vaxtda biz xarici borcu tam ödəyə bilərik. Bu, bizim siyasətimizi əks etdirir.”

Bu rəqəmə də diqqət yetirsək, Azərbaycana marağın hansı səviyyədə olduğunu görmək mümkündür. Keçən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlib. Aparılan hesablamalara görə, xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər. Dövlətimizin başçısının qeyd etdiyi kimi, turizmin inkişafı ilə bağlı aparılan siyasət özünü, ilk növbədə, maliyyə sahəsində büruzə verir: “Həm ölkəmizi tanıtdırırıq, həm də pul qazanırıq.”

Azərbaycan bu gün dünyada yalnız investisiya cəlbediciliyini qoruyan ölkə deyil, eyni zamanda, investisiya yatıran ölkə kimi də tanınır. Dünya enerji bazarında mövqeləri möhkəmlənən SOCAR biri-birindən əhəmiyyətli investisiya layihələri həyata keçirməklə imkanlarını daha da artırır. 2008-ci ildən Türkiyənin neft-kimya sənayesinin nəhəngi sayılan “Petkim”in idarə olunmasında söz sahibi olan və Türkiyəyə investisiya yatıran SOCAR bu günədək qardaş ölkənin neft-kimya sektorunun ən müasir texnologiyalar əsasında yenidən qurulmasına milyonlarla dollar sərmayə ayırıb. Nəticədə şirkətin istehsal imkanları daha da artıb. SOCAR-ın sərmayə yatırdığı ən böyük layihələrdən biri də Azərbaycanla Türkiyənin birgə layihəsi olan TANAP-dır. Dörd mərhələ üzrə həyata keçirilən Cənub Qaz Dəhlizi layihəsinin ilk mərhələsi olan TANAP-ın tikintisi ötən ilin iyununda başa çatdı.

Bir mühüm hadisəni də qeyd edək ki, ötən ilin oktyabrında “Star” neft emalı zavodunun açılışı mərasimində də qeyd edilmişdir ki, müxtəlif layihələrə yatırılan sərmayələr nəticəsində SOCAR Türkiyənin ən böyük investoruna çevrilib.

“Star” Türkiyədə iqtisadiyyatın və sənayenin inkişafına töhfə verməklə strateji məhsulların istehsalında əhəmiyyətli rola malikdir. O, Türkiyənin idxaldan asılılığını azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq. Cənab İlham Əliyev açılış mərasimində bu rəqəmi də açıqlamışdır ki, “Star Rafineri”nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcək: “Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda, biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması - bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən layihələrdir. Burada artıq qeyd edildi ki, biz qardaş ölkələrin iqtisadiyyatına böyük sərmayə yatırmışıq. Təkcə Əliağaya qoyulan sərmayə 10 milyard dollara yaxındır və gələcəkdə bu rəqəm daha da artacaq.”

Qısa təhlildən də göründüyü kimi, Azərbaycanın təkmil islahatları davamlı iqtisadi inkişafı və maliyyə imkanlarının artmasını şərtləndirir ki, bunlar da öz növbəsində ölkəmizin hərtərəfli inkişafına, həmçinin əməkdaşlıq əlaqələrinin genişlənməsinə yol açan mühüm layihələrin icrasını stimullaşdırır. İnvestisiya imkanlarının genişlənməsi ölkə iqtisadiyyatına, həmçinin Azərbaycanın digər ölkələrin iqtisadiyyatına qoyduğu sərmayələrin həcminin artmasından da aydın görünür. Əsas hədəf Azərbaycanın bütün sahələrdə təcrübəsinin nümunə olduğunu dünyaya nümayiş etdirməkdir. Beynəlxalq maliyyə qurumlarının hesabatlarında ölkəmizin reytinq göstəriciləri bu hədəfimizin reallıq olduğunu təsdiqləyir.

**Yeganə Əliyeva,**
***“İki sahil”***

# İnsanlar ümidi, pənahı cənab Prezidentdə görürlər

Bu günlərdə dövlətimizin başçısı cənab İlham Əliyev Ağsu və Şamaxı rayonlarına növbəti səfər etdi. Səfərinin məqsədi fevralın 5-də Ağsu, Şamaxı və İsmayıllıda baş verən güclü zəlzələnin fəsadlarının aradan qaldırılması idi ki, bu da dövlət başçısının diqqətində saxlanılırdı. O zaman cənab Prezidentin məsələyə dərhal reaksiya verməsi, zəlzələdən zərər çəkən əhaliyə dəymiş ziyanın tez bir zamanda aradan qaldırılması ilə bağlı göstərişlər verməsi bir daha təsdiqlədi ki, dövlət başçısı daim xalqını düşünür və onun yanındadır. Bununla da ölkə başçısı yerli icra hakimiyyəti orqanlarına müvafiq göstərişlər versə də, özü birbaşa nəzarət etmək məqsədilə həmin ərazilərə gəldi, sakinlərlə şəxsən görüşdü. Prezident İlham Əliyev sübut etdi ki, əhalinin problemləri ilə yaxından maraqlanır, daim onların yanındadır.



**Milli Məclisin deputatı Aydın Mirzəzadə** sözügedən məsələ ilə bağlı “İki sahil”ə açıqlamasında bildirdi ki, dövlət başçısımızın sadə vətəndaşlarla birgə səmimi görüşü çox böyük qürur məsələsidir: “Hər zaman çıxışlarında sadə insanların problemlərinin aradan qaldırılması, onların məsələlərinin həlli istiqamətində ciddi işlərin aparılması, eyni zamanda, siyasətinin mərkəzində sadə adamların durduğunu elan etməsi onun çox böyük və müdrik siyasətçi olduğunu sübuta yetirir. Ölkə başçısının tez-tez sadə insanlarla görüşü, onun ölkədəki vəziyyət haqqında sadə insanların dilindən eşitmək, onların problemlərinin həlli üçün yeni planlar qurmaq və bəzən diqqətdən kənarda qalan məsələni operativ həll etmək istəyindən irəli gəlir”.

Deputat onu da qeyd etdi ki, Prezident İlham Əliyevin Şamaxı və Ağsu rayonlarına səfəri, sakinlərlə görüşü, onların məsələləri ilə yerində maraqlanması və problemlərinin həlli ilə bağlı müvafiq icra orqanlarına operativ tapşırıqlar verməsi onun böyük bir siyasi məktəb keçdiyinin göstəricidir: “Vaxtilə ümummilli lider Heydər Əliyevin yanında böyük siyasəti öyrənməsi, Ulu Öndərin yanaşmasını əsas götürməsi bugünkü idarəetmədə dövlət başçımıza çox böyük gərək olur. Deyərdim ki, cənab Prezidentin insanlarla yaxınlığı böyük məsələlərin həllində ona yardımçı olur. Ən əsası isə cənab Prezident sadə insanlarla onların dilində danışmağı bacarır, onların qayğıları ilə yaşayır. Onların gündəlik həyatında iştirak edir. Hətta cənab Prezidentin Şamaxıda Saray nənə ilə bir ana-oğul münasibətləri qurması, istedadlı Şamaxı sakini, musiqiçi Vüqar Teyfurovun ifasını dinləməsi, Şamaxıda zəlzələdən zərər çəkən ailələr üçün tikiləcək yeni yaşayış binasının təməlqoyma mərasimində iştirakı onun böyüklüyündən, sadə insanlara yaxınlığından xəbər verir ki, bu da azərbaycançılığı ilk növbədə real hərəkətlərində ifadə etdiyini göstərir”.



**Politoloq Elşad Mirbəşiroğlu** isə açıqlamasında bildirdi ki, Prezident İlham Əliyevin Ağsu və Şamaxıda baş vermiş zəlzələdən zərərçəkmiş sakinlərlə görüşü sübut etdi ki, Azərbaycan sözün əsl mənasında sosial dövlətdir: “Müasir dövrümüzdə özündə sosial dövlətlətin əlamətlərini əks etdirən çox az sayda dövlət vardır. Məsələn, dünyada təxminən 20-yə qədər dövlət vardır ki, o dövlətləri biz qəti şəkildə sosial dövlət kimi təqdim edə bilərik. Çox sevindirici haldır ki, bu günlər Azərbaycan da özündə sosial dövlətin bütün əlamətlərini əks etdirir”.



“Prezident İlham Əliyevin tez-tez xalqın içində olması heç də təəccüblü deyil” deyən **siyasi şərhçi Azər Həsrət** isə açıqlamasında bildirdi ki, ümumiyyətlə, cənab Prezident siyasi karyerası dövründə sadə vətəndaşların mənafelərinin ifadəçisi kimi fəaliyyət göstərəcəyini deyib və bütün əməllərində də bunu sübut etdirib: “Bu günlərdə Şamaxı və Ağsu rayonlarına etdiyi səfər də o qəbildəndir. Bilirsiniz ki, bir ay öncə həmin ərazidə zəlzələ olmuşdu, nəticədə evlər dağılmış, insanlara xeyli ziyan dəymişdi. Cənab Prezident də dərhal həmin əraziyə səfər etmiş, özü şəxsən orada əhali ilə görüşmüş, tək-tək evlərə daxil olaraq insanlara dəymiş ziyan, onların durumunu şəxsən nəzərdən keçirmişdi. Elə oradaca tapşırıqlar vermişdi ki, bu insanların evləri dövlət tərəfindən tikilməlidir. Qısa müddətdə hər kəs öz evinə qayıtmalıdır. Məhz aradan bir ay keçdikdən sonra ölkə başçısı verilən tapşırıqların necə yerinə yetirilməsi ilə yerində tanış olmaq üçün həmin əraziyə yenidən səfər etdi. Maraqlısı odur ki, həmin rayonun sakinləri cənab Prezidenti necə sevinclə qarşıladılar. Yəni onlar ümidi, pənahı məhz cənab Prezidentdə görürlər. Dövlət rəhbərinin də xalqa bu qədər həssas davranması da lap insanların ürəyincədir. Belə hesab edirəm ki, dövlətimizin başçısının bu qədər sevilməsinin də mərkəzində bu məqam durur. Yəni o, xalqın ən adi problemləri ilə yaxından maraqlanır, mümkün olan hər şeyi edir ki, insanlar əziyyət çəkməsinlər”.

**Mənsumə Babayeva,**
***“İki sahil”***

## "AZƏRBAYCAN NEMƏTLƏRİ" MOSKVADA:
# 15 istehsalçı, 200-dən çox çeşiddə məhsul

Son illərdə iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində ölkə iqtisadiyyatı öz dayanıqlılığını möhkəmləndirir. Respublikamızda davamlı inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurla reallaşdırılması artıq öz bəhrəsini verməkdədir. Regionların iqtisadi inkişaf prioritetlərini özündə cəmləşdirən Dövlət proqramlarında bölgələrin sənaye potensialının gücləndirilməsi, iri fermer təsərrüfatlarının, aqroparkların, sənaye zonalarının yaradılması, rəqabətqabiliyyətli məhsulların istehsalının təşkili diqqət mərkəzində olub. Regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılması istiqamətində mühüm tədbirlər görülüb.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında" Fərmanı xarici ölkələrdə ölkəmizin və yerli ixracatçıların iqtisadi-ticarət maraqlarının daha dolğun qorunması və təmsil edilməsinə, yerli məhsulların xarici ölkələrin bazarlarına çıxışının genişləndirilməsinə, ixracın stimullaşdırılması ilə bağlı tədbirlərin tətbiqində səmərəliliyin və təsərrüfat subyektləri arasında işgüzar əlaqələrin qurulmasında çevikliyin artırılmasına böyük töhfələr verir.




Ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə Rusiya, Çin, Birləşmiş Ərəb Əmirliklərində və Şərqi Avropada ticarət nümayəndəlikləri, Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiyanın Həştərxan şəhərində "Azərbaycan İş Mərkəzi", Belarusda, Ukraynada, Azərbaycan ticarət evləri fəaliyyət göstərir.

"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən müxtəlif ölkələrdə ixrac missiyaları təşkil olunub. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə təşkil olunmuş ixrac missiyasına meyvə şirələri, təbii mineral sular, meyvə-tərəvəz məhsulları, quru meyvə, konservləşdirilmiş məhsullar, bal, çay, süd və süd məhsullarının, ət və ət məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri daxildir.

Ötən ay "Made in Azerbaijan" brendinin təşviqi, yerli məhsulların xarici bazarlarda tanıdılması məqsədilə Azərbaycan məhsulları Rusiyanın paytaxtı Moskvada təşkil edilən "Prodexpo 2019" sərgisində nümayiş olunmuşdu. Sərgidə qida, şərab və spirtli içkilər sahəsində fəaliyyət göstərən 31 Azərbaycan şirkəti öz məhsullarını vahid ölkə stendində təqdim etmişdi.

Bu günlərdə Moskvadakı "DEPO" qastromarketinin ərazisində Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyinin (AZPROMO) dəstəyi ilə "Azərbaycan nemətləri" mağazasının açılması respublikamızda istehsal olunan məhsulların ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsinin əyani təsdiqidir.

Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyevin sözlərinə görə, yeni layihəni Moskvada Azərbaycan Ticarət Evinin açılmasına doğru atılan ilk addım kimi qiymətləndirmək olar: "Ticarət Nümayəndəliyi ixracın stimullaşdırılması məqsədilə Azərbaycan məhsullarının Rusiya bazarında yayılması sisteminin formalaşdırılmasına başlayıb. Bu sistem Azərbaycan məhsullarının Rusiyaya ixracı üzrə ixtisaslaşdırılmış şirkəti olan "Azərbaycan nemətləri" mağazalar şəbəkəsini və ölkəmizin ixrac, sərmayə və turizm potensialı barədə daimi fəaliyyət göstərən sərgini özündə birləşdirəcək".

AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev bildirib ki, ölkəmizin başçısının təşəbbüsü ilə Azərbaycan məhsullarının təşviqi məqsədilə mühüm bir platforma-ticarət məkanlarının yaradılmasına başlanılıb. İlk ticarət evlərindən biri məhz Rusiyada, Həştərxanda yaradılıb. Yaxın vaxtlarda belə məkanların Moskvanın müxtəlif yerlərində açılması planlaşdırılır. "Azərbaycan nemətləri" mağazasında 15 istehsalçının 200-dən çox çeşiddə məhsulu təqdim olunur.

**Zahid Rza,**
***"İki sahil"***

## MƏHƏMMƏD MİRZƏLİ-ORDUXAN TEYMURXAN DİDİŞMƏSİ:
# kim-kimə qalib gələcək?



Müxtəlif bəhanələrlə xaricə sığınan və Azərbaycan dövlətinə qarşı ardıcıl şəkildə kampaniya aparan şəbəkənin aparıcı nümayəndələri bir-birlərinə qarşı ifşaedici açıqlamalar səsləndirirlər. Açıqlamalar göstərir ki, pul müqabilində Vətəninə, xalqına, dövlətinə, millətinə düşmən kəsilən bu dəstə üzvləri özbaşına hərəkət etmirlər. Onlar ölkəmizin uğurlarını həzm edə bilməyən qüvvələrin, xüsusən də erməni diaspor təşkilatlarının, həmçinin ölkəmizə siyasi təzyiq göstərmək istəyən dövlətlərin əlində maşa rolunu oynayırlar.

Son günlər yenidən Avropada adlarını "demokrat" qoyub, əslində isə Azərbaycanın imicinə zərbə vurmaq, ona ləkə yaxmaqla məşğul olan məlum qruplar arasında qrant davası yenidən alovlanıb. Bununla da üç-beş quruş qrantı bölə bilməyənlər bir-birinə qarşı sosial şəbəkələr üzərindən təhqiramiz ifadələr işlətməklə məşğul olurlar. Bir zamanlar bir-birlərinə qardaş deyənlər bu gün mitinq qrantlarına görə düşmənə çevriliblər. Söhbət Məhəmməd Mirzəli ilə Orduxan Teymurxandan gedir ki, onlar da üç-beş quruşdan ötəri özlərini lap alçaldılmış vəziyyətə salıblar.

Bu, həmin Məhəmməd Mirzəlidir ki, Tural Sadıqlıdan ala bilmədiyi 300 avroya görə təhqir və ifşa videoları yayırdı. Bu, həmin Orduxan Teymurxandır ki, Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edilərkən Cəbrayıldan olan birisi kimi torpaqlarını müdafiə etmək əvəzinə Avropaya qaçdı. İndi isə hər iki Vətən xaini mitinq qrantı uğrunda bir-birini ifşa etməklə məşğuldurlar. Avropada "təhqir maşınları" kimi formalaşmış bu qüvvələri ancaq onlara ayrılan qrantlar maraqlandırdığı üçün pul mübahisəsi düşən kimi bir-birlərini satırlar, ifşa edirlər. Məhz Tural Sadıqlını pula görə ifşa edən Məhəmməd Mirzəli bu dəfə də qranta görə Orduxan Teymurxanı ifşa etdi, həttа təhqir etdirdi.

Onu da qeyd edək ki, "Facebook" profilində Orduxanı biabır edən Məhəmməd dost-tanışına təhqiredici rəylər də yazdırıb. Məsələn, Orduxanın əsəb gərginliyi keçirdiyini, özünə hakim ola bilmədiyini əsas gətirməklə "Orduxan nə zaman düşünüb söz deyib ki?" kimi rəylər yazılıb. Eyni zamanda, "19 mart mitinqini" təxribat adlandıran Orduxanı satılmaqda da ittiham ediblər.

Bir sözlə, Avropadakı dağıdıcı müxalifət özünü bir daha ifşa etdi. Hər kəs açıq-aydın gördü ki, Orduxan da, Məhəmməd də, Tural da və başqaları da yalnız pula görə fəaliyyət göstərirlər. Beləliklə, bütün bunlar bir daha sübut edir ki, nə qədər ki, bu qranta görə əqidəsini, məslәkini, mənəviyyatını, Vətənini satan əxlaqsızlar var və bunlar bir-birilərini söyəcəklər, hətta ondan da kənara çıxacaqlar. Çünki onların bir məqsədi var: o da puldur!

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# Ötən əsrin xiffəti ilə yaşayan dağıdıcılar



Azərbaycanın dağıdıcı müxalifət düşərgəsində təmsil olunanların daim milli maraqlara zidd mövqe sərgiləmələri, özlərinin şəxsi maraqlarını hər şeydən önə çəkmələri cəmiyyətdə onlara qarşı adekvat münasibət formalaşmasına gətirib çıxarıb. Hələ müstəqilliyin ilk illərində hakimiyyətdə olduqları zamandan bəri bu və digər əməllərinə görə siyasi mübarizədə məğlub olan dağıdıcı müxalifət nümayəndələrinə xalqımız açıq şəkildə "yox" dedi. Bundan sonrakı bütün illər ərzində dağıdıcıların həyata keçirdikləri hər bir tədbir cəmiyyətimizin onlara olan mənfi münasibətini növbəti dəfə təkrar-təkrar açıq şəkildə ortaya qoyur.

Bu baxımdan 2019-cu ilin əvvəlində bu qəbildən olan bir-iki partiya və onların ətrafında olan təşkilatların keçirdikləri mitinq də istisna deyil. Belə ki, "Məhsul" stadionunda keçirilən son mitinq bir daha radikal müxalifət düşərgəsinin zəifliyini və cəmiyyət tərəfindən heç cür dəstəklənmədiyini nümayiş etdirdi. Əslində, yanvarın 19-da "Məhsul" stadionunda məzhəkə yaşandı desək, əsl həqiqəti ifadə etmiş olarıq. Mitinqdə dağıdıcı partiya başçılarının və funksionerlərinin çıxışları bir daha göstərdi ki, onlar cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmirlər. Mitinq-souda tribunalarda 25 ildən çoxdur dəyişməyən eyni simaların dilindən yenə eyni şüarlar, dəyişməyən populist və mənasız çağırışlar, əsassız ittihamlar və yalan vədlər səsləndirildi.

"AXC-nin şinelindən" çıxmış və bu gün də müxalifət postunu zəbt etmiş şəxslərin çıxışları, irəli sürdükləri iddialar bir daha təsdiq etdi ki, onlar hələ də revanşizm havasındadırlar, dağıdıcılıq və sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindən əl çəkməyiblər. Digər tərəfdən görünən odur ki, xalq tərəfindən dəstəklənməyən bu qüvvələr müxtəlif təxribatlara əl atmaqdan belə çəkinmirlər. Belə ki, yanvarın 19-da mitinqdən bir gün sonra, yəni yanvarın 20-də Şəhidlər xiyabanında radikal müxalifət və onun başçılarının simasızlığı, başıpozuqluğu bir daha aydın şəkildə özünü büruzə verdi. Məlum oldu ki, dağıdıcı müxalifət başbilənləri öz iddialarını reallaşdırmaq üçün Azərbaycanı Suriya kimi vətəndaş qarşıdurması gedən ölkənin vəziyyətinə belə salmağa hazırdırlar. Bu insanlar normal, sivil qaydada tədbir keçirmək, ictimaiyyətə öz fikir və ideyalarını çatdırmaq qabiliyyətində deyillər. Səbəbi isə çox sadədir: illər, hətta əsr dəyişsə belə dağıdıcılar dəyişə bilməyərək ötən əsrin xifləti ilə yaşamaqda davam edirlər.

**Taleh Bağırov,**
***"İki sahil"***

NEFT TARİXİMİZ...

## Azərbaycan neft sənayesinin yaranmasında milli, rus və xarici kapitalın rolu

# Azərbaycan milli kapitalının görkəmli nümayəndələri

**XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri Şimali Azərbaycan tarixində mühüm mərhələ təşkil edir. Bu dövr Şimali Azərbaycanda çar Rusiyasının bütün imperiya ərazilərində apardığı islahatların nəticələri özünü büruzə verməyə başladı. 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğvi bu sahədə çox böyük yüksəlişə səbəb oldu. Neftli torpaqların hərraca çıxarılması neft sənayesinə böyük miqdarda kapitalın axınına səbəb oldu.**

Neft sənayesində sahibkarlıqla Avropa ölkələri, ABŞ və Rusiyadan olan ayrı-ayrı şirkətlər və şəxslər məşğul olmağa başladılar. Bakıda neft sənayesinin coşqun inkişafı illərindən danışarkən belə bir cəhəti hökmən nəzərə almaq lazımdır ki, azərbaycanlı neft sahibkarlarının əksəriyyəti çox kasıb ailələrdən çıxmışdı və nəticədə XIX əsrin 70-ci illərindən - 1920-ci ilin mayınadək təkcə Azərbaycanın deyil, o cümlədən Rusiya imperiyasının ən nüfuzlu şəxslərinə çevrilmişdilər. Onların çoxu heç bir təhsil görməmişdi. Yeganə üstünlükləri bundan ibarət idi ki, nadir bir dövrdə yaşayırdılar və belə bir dövrdə gecə-gündüz neft mədənində alın təri tökməklə çalışan adi fəhlə Bakının tükənməz, məşhur neft fontanları sayəsində varlı sahibkar ola bilərdi. Lakin bunun üçün, təbii ki, bacarıq, istedad, müdrikliklə bərabər, ilk növbədə güclü milli qürur hissi tələb olunurdu.

İndiyədək hər birimizin fəxr etdiyimiz Bakı şəhərinin qaynar həyatı bu sahibkarların səxavəti sayəsində yaranmışdır, əvəzsiz xeyriyyəçilik ənənələrinin əsasını onlar qoymuşlar. Müstəmləkə dövründə millətinə sahib çıxan bu böyük şəxsiyyətlər içərisində H.Z.Tağıyevin, A.M.Nağıyevin, A.M.Muxtarovun, A.Ş.Əsədullayevin, Aşurbəyov, Kainski və Dadaşov qardaşlarının adları xüsusi yer tutur və bu adlar Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmışdır. Şimali Azərbaycanın Rusiya imperiyasının müstəmləkələrindən biri olduğu, milli dövlətçiliyin müvəqqəti olaraq itirildiyi bir şəraitdə bu insanlar dövlətin görə biləcəyi işləri öz çiyinlərinə götürmüşdülər. Azərbaycan millətinin yaşaması, inkişafı və yenidən milli dövlətçiliyə qovuşması üçün mümkün olmayan işi mümkün etdilər. Sovet dövrü ərzində bu şəxslərin hətta adlarını belə çəkmək qadağan edilsə də, totalitar sistem onların unudulması üçün hər cür vasitələrə əl atsa da, sahibkarların ucaltdıqları möhtəşəm binalar kimi nəcib əməlləri də xalqın qəlbindən, hafizəsindən heç zaman silinməmişdir. 1872-ci ildə iltizam sistemi ləğv edildikdən sonra Bakı neft və neft emalı sənayesində Azərbaycan milli kapitalı geniş şəkildə təmsil olunmuşdur. Belə ki, XIX əsrin 70-ci illərində neft quyularının 88%-i yerli sahibkarların əlində cəmlənmişdi. İstifadəyə yararlı yalnız 17 sahə var idi ki, onlardan 15-i Balaxanı, 2-si Bibiheybət kəndləri ərazilərində yerləşirdi. 46 kerosin zavodunun sahiblərindən 25-i azərbaycanlı idi. 1883-cü ildə isə Bakıda fəaliyyət göstərən 100 kerosin zavodundan 41-i azərbaycanlı sahibkarlara məxsus idi. Bu zavodların əksəriyyəti H.Z.Tağıyevə, H.Mehdiyevə, A.Nuriyevə, M.Xanlarova və başqalarına məxsus idi. Ümumi neftçıxarma işində də azərbaycanlı sahibkarların xüsusi çəkisi böyük idi. Belə ki, Bakıda çıxarılan neftin 3%-dən çoxu Ağamusa Nağıyev və Ağa Şəmsi Əsədullayevə məxsus şirkətlərin payına düşürdü.

### HACI ZEYNALABDİN TAĞIYEV (1823-1924)



Pinəçi ailəsində anadan olmuş Zeynalabdin altı yaşında bənna şagirdi işləməyə başlamışdı. Sonralar o, milyonlar sahibi olsa da, bütün ömrü boyu özünün cəmi bir neçə qəpikdən ibarət ilk əmək haqqını hər şeydən yüksək qiymətləndirirdi. Bu əmək haqqı ona çörək və pendir almaqla böyük ailəni dolandırmağa imkan vermişdi. Təqribən 55 yaşında ikən neft milyonçusu oldu. Həmin vaxtadək bənna, yükvuran və podratçı işləmişdi. XIX əsrin 60-cı illərinin sonunadək tikinti işləri ilə məşğul olan H.Z.Tağıyev müəyyən miqdar kapital topladıqdan sonra manufaktura işi ilə məşğul olmaq qərarına gəlir. O, 1870-ci ildə azərbaycanlılar içərisində ilk olaraq kerosin zavodu alır. 1872-ci ildə isə neftçıxarma işində özünü sınamaq istəyir. O bu məqsədlə topladığı 9 min rubla öz ortaqları ilə Bibiheybətdə neftli torpaq alır və burada qazma işlərinə başlayır. Lakin H.Z.Tağıyevin şəriki gözləməkdən bezərək öz payını ona güzəştə gedir. Özünə inam və inadkarlıq H.Z.Tağıyevə uğur gətirir. 1878-ci ildə H.Z.Tağıyevin qazdırdığı ilk neft quyusu fontan vurur və tezliklə, o, Bakının ən zəngin və tanınmış adamlarından birinə çevrilir. Onun yaratdığı "H.Z.Tağıyev" şirkəti bütün neft sənayesində mühüm mövqeləri ələ keçirir: qazma, hasilat, emal və nəqletmə kimi əsas istiqamətlər bir şirkətin fəaliyyətində öz əksini tapır. Böyük kimyaçı-alim D.Mendeleyev özünün "Neft" kitabında yerli sahibkarlardan H.Z. Tağıyevi fəaliyyətinə görə xüsusi qeyd edir və onu neft sənayesinin "mühərriki" adlandırır. Tez bir zaman içərisində H.Z.Tağıyev təkcə neft sənayesində deyil, həm də neft satışı bazarında böyük nüfuz qazanır. 1886-cı il yanvarın 11-də neft sənayeçilərinin toplantısında "Biz neftsənaye böhranından necə çıxa bilərik ?"mövzusunda məruzə ilə çıxış edir və yaranmış vəziyyətdən xilas yollarını göstərir. O öz təklifləri ilə "Kaspi" qəzetinin səhifələrində çıxış edir. Lakin onun təklifləri neft işi ilə məşğul olan əksər sahibkarları qane etsə də, Azərbaycan neft sənayesində çox güclü mövqeləri ələ keçirmiş "Nobel qardaşları yoldaşlığı" və Rotşildlərə məxsus "Xəzər-Qara dəniz neft-sənaye və ticarət" şirkətləri tərəfindən rədd edilir. 1886-cı ilin qışında Nobel qardaşları şirkəti H.Z.Tağıyevin yerli sahibkarların bir təşkilatda birləşməsi təşəbbüsünə faktiki olaraq müharibə elan edir. "Nobel qardaşlarının yoldaşlığı" şirkəti xam neftə verginin tətbiq edilməsi təklifi ilə çıxış edir və bu məqsədlə geniş təbliğata başlayır. Buna cavab olaraq H.Z.Tağıyev "Nobel qardaşları yoldaşlığı" şirkətinin bu təklifinin əleyhinə çıxır. Bu məsələdə onu D.İ.Mendeleyev müdafiə edir. "Nobel qardaşları yoldaşlığı" şirkətinin və Rotşildlərin bu addımı yerli sahibkarları hərəkətə gətirir. Lakin 1892-ci ildə neft sənayesində başlanan böhran bir-biri ilə heç də sadə münasibətləri olmayan 80 şirkətin "Bakı kerosin zavodçuları ittifaqı"nda birləşməsi ilə nəticələndi. Bu təşkilatda güclü rəqabət mövcud idi və o iki qrupa bölünmüşdü. Birinci qrupa "Nobel qardaşları yoldaşlığı", Rotşildlərin "Xəzər-Qara dəniz neftsənaye və ticarət cəmiyyəti", "S.M.Şibayev və K0", "Musa Nağıyev" və başqa şirkətlər, ikinci qrupa isə H.Z.Tağıyevin başçılığı ilə "Bakı standartı" şirkətlər birliyi daxil idi.

Qeyd etmək lazımdır ki, XIX əsrin sonunda neft sənayesində heç bir sindikat birliyi H.Z.Tağıyevin iştirakı olmadan fəaliyyət göstərə bilmirdi. Onun enerjisi, ağlı, güzəştə getmək diplomatiyası hətta ən ümidsiz layihələrin reallaşdırılmasına kömək edirdi. H.Z.Tağıyevin bir neft sahibkarı kimi fəaliyyətində diqqəti cəlb edən ən mühüm məqam ondan ibarətdir ki, o dövrün bütün siyasi və iqtisadi çətinliklərinə baxmayaraq heç bir böhran və yaxud rəqabət çarpışması onu öz yolundan döndərə bilməmişdi. XIX əsrin sonunda Bakı neft sənayesinin icmalı göstərir ki, H.Z.Tağıyevin neft sənayesi sahəsində sahibkarlıq fəaliyyətinin ümumi dəyəri 20 mln rubla bərabər idi. Lakin bu zaman bütün iş dünyasını çaxnaşmaya salan hadisə baş verir. H.Z.Tağıyev bütün neft müəssisələrini ingilislərə satır. O bunu nə üçün edir, onu belə bir qərara nə sövq edir? Bunu yalnız bu dahi şəxsiyyətin özü bilirdi. Çox maraqlıdır ki, H.Z.Tağıyev bütün neft müəssisələrini satsa da, neft işindən tamamilə ayrılmamışdı. Bir müddət keçdikdən sonra H.Z.Tağıyev yenidən neft işinə dönmüş və bu sahədə bir sıra yeni konsern, şirkət və səhmdar cəmiyyətlərinin yaradılması və idarə edilməsində iştirak etmişdi. 1915-ci ilin aprelində "Rusiyanın səhmdarpay müəssisələri"nin Peterburq nəşri "Sərgi-Qafqaz neftsənaye və ticarət səhmdar cəmiyyəti" yaradıldığını və onun İdarə heyətinə H.Z.Tağıyevin seçildiyini yazır. Lakin o özünün neft sənayesində əvvəlki nüfuzunu bərpa edə bilsə də, onun XX əsrin əvvəllərindəki fəaliyyəti XIX əsrin sonlarındakı miqyasla müqayisəyə gəlmir. XX əsrin əvvəllərində H.Z.Tağıyev artıq öz gücünü başqa sahələrə yönəltmişdi.

### AĞA MUSA NAĞIYEV

Ağa Musa Hacı Əli Nağı oğlu Nağıyev 1849-cu ildə Bakının Biləcəri kəndində samançı ailəsində dünyaya göz açmışdı. Öz tərcümeyi-halında təhsili qrafasında "ev təhsili" yazdıran Ağa Musa Nağıyev əslində heç bir təhsil almamışdı. Təbiətən çox çevik və ağıllı olan Ağa Musa Nağıyev hələ uşaq ikən kənd təsərrüfatı ilə məşğul olmağa başlayır. O, 12 yaşında olarkən böyük qənaətlə pul topladıqdan sonra 1862-ci ildə kiçik bir dükan açır. Bundan sonra Ağa Musa Nağıyev Bibiheybətdə kiçik bir torpaq sahəsi alır. Tale aldığı torpağı suvarmaq üçün quyu qazmağa başlayan A.M.Nağıyevin üzünə gülür və qazdığı quyudan neft fontan vurur. Bu neft fontanı çox qısa bir müddət ərzində A.M.Nağıyevi Bakının ən zəngin və tanınmış iş adamlarından birinə çevirdi. A.M.Nağıyev bundan sonra Sabunçu, Ramanı və Suraxanıda yeni neftli torpaq sahələri aldı və neft işində öz fəaliyyətini genişləndirməyə başladı. O bu sahədə işlərini uğurla davam etdirmək üçün 1887-ci ildə "A.M.Nağıyev" şirkətini təsis edir. Başqa neft sənayeçiləri kimi A.M.Nağıyev də Qara şəhərdə kiçik neft emalı zavodu tikdirir və bu işini genişləndirdikdən sonra onun buxarla işləyən ilk gəmisi Xəzər dənizində üzməyə başlayır. Çox qısa bir müddət ərzində A.M.Nağıyev Bakının, haqqında əfsanələr gəzən ən zəngin və nüfuzlu şəxslərindən birinə çevrilir. Onun bu məşhurluğu cəmiyyətin bütün təbəqələrinin, o cümlədən cinayətkar aləmin də diqqətini cəlb edir. XX əsrin əvvəllərində Bakıda bolşeviklərə rəhbərlik etmiş və o zamanlar "Koba" ləqəbini daşıyan İ.V.Stalin əksəriyyəti qeyri-azərbaycanlı millətlərdən ibarət olan və özünün başçılıq etdiyi silahlı "quldur" dəstəsinə A.M.Nağıyevi oğurlamaq tapşırığı verir və onun geri qaytarılması üçün tələb olunan məbləği də müəyyənləşdirir - 300 min rubl pul. 1908-ci il dekabrın 26-da quldurlar onu günün günorta çağı oğurlayaraq yuxarıda göstərilən məbləğin ödənilməsini tələb edirlər. Qeyd etmək lazımdır ki, bolşeviklərin oğurluq və qarət yolu ilə topladıqları pullar onların lideri V.İ.Leninin birbaşa tapşırığı ilə dövlət əleyhinə fəaliyyətə sərf olunurdu. İ. V.Stalinin ekspropriasiya (reket - C.B.) yolu ilə əldə etdiyi pullara silah alınırdı. Bu silahın böyük hissəsi 1905-1906- cı illərdə Şimali Azərbaycanda azərbaycanlılara qarşı törədilən qırğınlarda canfəşanlıq edən ermənilərə paylanmışdı. A.M.Nağıyevin azad edilməsi üçün səy göstərən Bakı şəhər rəisi Martınov peşəkar oğrular qarşısında çıxılmaz vəziyyətə düşərək 50 min rubl ödəməklə onun azad edilməsinə nail olur. Heç şübhəsiz ki, ödənilən məbləğ A.M.Nağıyevə məxsus idi. Beləliklə, rəsmi məlumatlara əsasən XX əsrin əvvəllərində A.M.Nağıyevin Balaxanı, Ramanı və Sabunçu kəndləri ərazilərində yerləşən neftli torpaqlarında o dövr üçün müasir texnika ilə təchiz edilmiş 45 yüksək debitli neft mədəni işləyirdi. Bu mədənlərdə 800 fəhlə çalışırdı. A.M.Nağıyevin neft sənayesində qazandığı uğurlarda istedadlı azərbaycanlı mühəndis Fətəlibəy Rüstəmbəyovun xüsusi əməyi var idi. 1908-ci ildə Ağa Musa Nağıyev öz mədənlərindən 12328300 pud neftin hasil edilməsinə nail olmuşdu. 1915-ci ildə isə onun şirkətləri ən nüfuzlu azərbaycanlı sahibkarların təşkil etdikləri onluğa daxil idi. A.M.Nağıyev Bakı neft sənayeçiləri arasında 12 səsə malik idi.



### AĞA MURTUZA MUXTAROV (1855-1920)

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan neft sənayesində təmsil olunan milli kapitalın ən görkəmli nümayəndələrindən biri də Ağa Murtuza Muxtarovdur. 1855-ci ildə Bakının Əmircan kəndində dünyaya göz açan Ağa Murtuza Muxtarov 1891-ci ildə "Murtuza Muxtarov" şirkətini yaradır və şirkət Azərbaycanda ilk dəfə neft sənayesi üçün texniki avadanlığın istehsalı ilə məşğul olmağa başlayır. Bundan əlavə, o, Sabunçu, Bibiheybət və Suraxanıda neft mədənləri və mexaniki zavodların sahibi idi. A.M.Muxtarov 1903-1917-ci illərdə "Qazma işləri sahibkarları sindikatı"nın, "Neft mədənləri qazmaçı - podratçıları Bakı cəmiyyəti"nin və "Podrat qazma şirkətləri ittifaqının" əsas üzvlərindən biri olmuşdur. 1913-cü ildə "Podrat qazma şirkətləri ittifaqı" səhmdar cəmiyyətə çevrilir və ona məxsus kapitalın həcmi 4 mln rubl təşkil edirdi. Bakı neft sənayesində 1903-1917-ci illər ərzində qazma işi ilə 30 müəssisə məşğul olurdu ki, onlardan ikisi A.M.Muxtarova məxsus idi. Podrat qazma işi ilə məşğul olan bu müəssisələrdən biri Sabunçuda, digəri isə Bibiheybətdə yerləşirdi. Bu müəssisələrdə əvvəllər 1000 nəfər fəhlə çalışdığı halda, 1907-ci ildə burada 1950 fəhlə çalışırdı. Qeyd etmək lazımdır ki, Bakı neft sənayesində podrat qazma işində üstünlük milli kapital nümayəndələrinə məxsus idi. Lakin bu da bir həqiqətdir ki, Bakı neft sənayesində söz sahibi olan "Nobel qardaşları yoldaşlığı" şirkəti milli kapital nümayəndələrinə münasibətdə çox sərt mövqe tuturdu. Məhz Nobel qardaşlarının səyləri sayəsində Azərbaycan neft sənayesində uzun müddət podrat qazma ilə məşğul olan "Murtuza Muxtarov" şirkəti zəifləmiş və Azov-Don kommersiya Bankı tərəfindən satın alınmışdı. 1920-ci ildə Azərbaycanı işğal edən Sovet Rusiyasının XI Qızıl Ordusunun bölmələri ölkənin paytaxtı neft Bakısını ələ keçirdikdən sonra varlıların evinə girərək qiymətli əşyaları müsadirə edirdilər. Murtuza Muxtarovun evinə qapını sındıraraq soxulan bolşevik əsgərlərə: "Siz nə cəsarətlə qapını döymədən mənim evimə daxil olmusunuz? Siz kimsiniz?" sualına cavab olaraq M.Muxtarov təhqir və söyüşlə qarşılaşır. Öz qürur və qeyrəti ilə oynanıldığını görən M.Muxtarov onu təhqir edən əsgərləri yerindəcə güllələyir və son olaraq: "Bu evə siz yalnız mənim cəsədim üstündən keçə bilərsiniz" - deyərək sonuncu gülləni özünə vurur. Gecə ikən onun cəsədi dostu Ağa Hüseyn Davud oğlu Molla Əmir tərəfindən gizlicə sarayından çıxarılaraq Əmircan kəndinə aparılır və orada dəfn olunur. Həyat yoldaşı Liza xanım Tuqanova-Muxtarova gizli şəkildə Bakını tərk etməyə çalışsa da, soyğunçuların hücumuna məruz qalır və çox çətinliklə İstanbul şəhərinə köçə bilir.



⇨ Ardı var

✍ Cəbi Bəhramov
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, t.ü.f.d., dosent

# Keçəl dərman bilsə...

## DÜŞMƏN DƏYİRMANINA SU TÖKƏN ƏLİ KƏRİMLİLƏRDƏN S.GİLİN ERMƏNİ SEVGİSİNƏ MÜNASİBƏT GÖZLƏMƏK GÜLÜNC VƏ REALLIQDAN UZAQDIR



Azərbaycanın uğurlarını həzm etməyən xarici antiazərbaycan qüvvələrin öz çirkin məqsədlərini həyata keçirmək üçün daxili bədxahlarımızdan bir vasitə kimi bəhrələnmələri məlum olaylardandır. Siyasi qul imiclərini xəyanətkar əməlləri ilə zaman-zaman daha da zənginləşdirən bu ünsürlər ictimai diqqəti özlərindən yayındırmaq üçün nə qədər dəridən-qabıqdan çıxsalar da heç gözləmədən ortaya çıxan hansısa bir məqam onların bu cəhdlərini mümkünsüz edir. Bu günün müzakirə mövzularından olan Norveçin Azərbaycandakı keçmiş səfiri Steynar Gilin sosial şəbəkələrdə Azərbaycan dövləti, xalqı barədə qərəzdən yaranan fikirləri öz növbəsində onun yaxın dostu kimi tanınan radikal müxalifətin süstlüyünün səbəblərinin də açıqlanmasına yardımçı olur. Özlərini ictimai fikrə ümummilli məsələlərdə birliyin tərəfdarı, vətənpərvər kimi sırımaq üçün Xocalı soyqırımının anım günündə, həmçinin 20 Yanvar hadisələrinin ildönümündə görünüb, açıq-aşkar qarşıdurma yaratmaqda və bunu beynəlxalq təşkilatlara ünvanlamaqda maraqlı olan əli kərimlilər bu gün niyə Steynar Gilin dövlətimizə, xalqımıza yönələn qərəzli açıqlamalarına, ən əsası erməni dəstəyinə susmaqla münasibət bildirirlər? S.Gilin radikal müxalifətin yaxın dostu, daha dəqiq desək, ölkədə qarşıdurma yaratmaq ssenarisinin müəllifi olduğu heç kəsə sirr deyil, səfirlik missiyasının mahiyyətinin nədən ibarət olduğunu zərrə qədər dərk etməyən bu şəxsin məqsədi ancaq və ancaq dağıdıcı müxalifətlə və "hüquq müdafiəçiləri" ilə gizli görüşlər keçirmək, onları təlimatlandırmaq olub. Hər görüş isə icazəsiz mitinqlərlə tamamlanıb.

Bu gün mətbuat səhifələrində antiazərbaycan mövqeyinə, həqiqətə yalan gözlə baxmağına görə qınaq obyektinə çevrilən Steynar Gilin sosial şəbəkələrdə yer alan fikirlərinə diqqət yetirsək, radikal müxalifətin seyrçi mövqedə dayanmağının səbəbləri bəlli olar. S.Gil 2016-cı ilin aprel hadisələrindən sonra sosial şəbəkədə paylaşmışdır ki, guya Azərbaycan hərbçiləri məhv etdikləri düşmən əsgərlərinin meyitlərinə qarşı alçaldıcı hərəkətlər ediblər. Aparılan araşdırmalar nəticəsində bəlli oldu ki, paylaşılan şəkil Azərbaycan hərbiçisinə məxsus deyil. Bu ilin fevralında isə növbəti statusu ilə diqqəti çəkən S.Gil guya azərbaycanlıların erməni qəbirlərini dağıtdığını yazdı, hətta bir qədər də irəli gedərək ermənilərin tarixi saxtalaşdırma xəstəliklərinə dəstək olaraq ermənilərin soyqırıma məruz qaldıqlarını əsassız şəkildə qeyd etdi. S.Gilə status paylaşmadan öncə tarixə müraciət etmək tövsiyə olunsa da, dağıdıcıların "milli maraqlar" deyib vətənpərvərlik donu geyinmələrinin mümkünsüzlüyünə aydın işıq düşür. S.Gil ilə dostluqlarından əlavə bu ünsürlərin ermənilər və ermənipərəst qüvvələrlə işbirliyini təsdiqləyən xeyli faktlar mövcuddur. Ən əsası, ziyalı adına ləkə olan əkrəm naibovlara, rüstəm ibrahimbəyovlara erməniləri müdafiə etdiklərinə görə dəstək olan əli kərimlilər, cəmil həsənlilər sözsüz ki, S.Gilə daha böyük qucaq açmış olacaqlar. Bu günə qədər ermənilərə dəstək missiyasını yerinə yetirən Ə.Naibov-R.İbrahimbəyov-Ə.Kərimli-C.Həsənli birliyinə S.Gilin də adının əlavə olunması ictimaiyyətdə çaşqınlıq yaratmaz. Qanında azərbaycanlı qanı axan "sapı özümüzdən olan baltalar" erməniləri müdafiə edərək onların soyqırıma məruz qaldığını bildirirsə, S.Gilin sayıqlamaları adi qəbul olunmalıdır.

İnsanın xarakteri, keyfiyyətləri zaman-zaman deyil, elə dünyaya gəldiyi andan formalaşır. Demək "sapı özümüzdən olan baltalar"ın erməni sevgisi də dünənin, bu günün işi deyil. Vətəndaşlıq təəssübkeşliyi olan şəxs hadisələrin təhrifindən vicdan əzabı çəkər, təkcə Xocalı soyqırımını xatırlamaqla şəxsi ambisiyalarının quluna çevrilmələrindən, Vətənə xəyanət əməllərindən utanc hissi keçirərlər. Lakin hadisələrin cərəyan etməsindən görünür ki, belə keyfiyyətlər mənliyini itirmiş, ermənilərin, erməni diasporunun əlində bir vasitəyə çevrilmiş "sapı özümüzdən olan baltalar" üçün yaddır. Yad olmasaydı, erməniləri qəhrəman kimi təqdim etməzdilər.

Ermənilərin zaman-zaman azərbaycanlılara və türklərə qarşı soyqırımı və deportasiya siyasəti həyata keçirdikləri faktdır. Bu gün torpaqlarımızın 20 faizinin işğal altında qalması, bir milyondan çox soydaşımızın qaçqın və köçkün vəziyyətində yaşaması Ermənistanın əsassız torpaq iddiasının nəticəsidir. Dünyada soyqırımı kimi tanıdılması istiqamətində səylər göstərilən Xocalı faciəsi erməni vəhşiliyinin təzahürüdür. Gərək insanda Vətənə xəyanət hissi o qədər böyük ola ki, bu kimi faktları bir kənara qoyub, ermənilərə xoş gəlmək, onlarla dostluq əlaqələrini möhkəmləndirmək üçün belə xəyanət yolunu tuta bilə. Zaman-zaman ermənilər və erməni diasporu dünyada cərəyan edən proseslərə təsir imkanlarının böyüklüyünü nəzərə alaraq azərbaycanlıları "vəhşi, zalım", erməniləri isə "əzilən, döyülən, məzlum" millət kimi dünyaya təqdim ediblər. 200 illik tarixi öyrənməyə ehtiyac yoxdur. Yenə də qeyd edirik ki, XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımından bizi 27 illik zaman ayırır. Görünür, əkrəm naibovlar, rüstəm ibrahimbəyovlar, əli kərimlilər, cəmil həsənlilər və s. kimilər faciələrimizi dünyaya çatdırmaq niyyətində olsaydılar, azərbaycanlıları aşağılayan, ermənilərə dəstək olan addımları atmaz, bu gün də vətəndaşlıq təəssübkeşliyinə söykənərək S.Gil kimilərin yalanlarını həqiqətin dili ilə cavablandırardılar. Əbəs yerə deyilmir ki, keçəl dərman bilsə öz başına çəkər. Daxili bədxahlarımızda mənəviyyat, sima olsaydı yaşadığı ölkəni, mənsub olduğu dövləti, xalqı beynəlxalq ictimaiyyətə şəxsi ambisiyalarına uyğun şəkildə təqdim etməzdilər. Bu baxımdan onlardan S.Gilə mənəviyyat dərsi keçməyi gözləmək gülünc və reallıqdan uzaqdır.

**Yeganə Əliyeva, *"İki sahil"***

# *Teatrşünas:* Azərbaycan teatrı yeni inkişaf mərhələsinə qədəm qoyub

**Azərbaycan teatrının yaranmasından 146 il ötür. 1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M. F. Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyasının nümayişi ilə əsası qoyulan Azərbaycan milli teatrı şərəfli bir yol keçib. 146 illik tarixi keçmişi olan teatrımızın bu günü ilə bağlı Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq kafedrasının müəllimi, "Yuğ" Dövlət Teatrının ədəbi hissə müdiri, teatrşünas Elçin Cəfərova bir neçə sualla müraciət etdik.**



***-Elçin müəllim, 146 yaşlı milli teatrımızın bugünkü durumunu necə dəyərləndirərdiniz?***

-Bu gün teatr sənətimizin ideal vəziyyətdə olduğunu deyə bilmərəm. R.Strua demişkən, teatr elə bir sənət növüdür ki, həmişə böhrandadır və həmişə böhrandan çıxmağa çalışır. Amma teatrımızın hər bir uğuru, hətta kiçik müvəffəqiyyəti də bizi sevindirir, məşğul olduğumuz sənət sahəsinin gələcəyinə daha ümidlə baxmağa imkan verir. Hərdən sənətin problemlərindən danışanda teatr prosesimizə "Hamburq hesabı" ilə yanaşıb, pisi-pis, əyrini-əyri kimi qiymətləndirəndə bəzi teatr adamları bizdən inciyir, teatrşünasları amansız olmaqda, teatrı sevməməkdə ittiham edirlər. Ancaq bəlkə də teatrşünaslar qədər teatra təmənnasız xidmət edən ikinci bir sənət sahibi yoxdur. Heç bir maddi təminat olmadan, təşəkkür eşitmədən, fəxri ad, təqaüd, mükafat gözləmədən.

Bu gün teatr sənətinin bütün sahələrində - teatrşünaslıqda da, rejissurada da, aktyor sənətində də maraqlı gənclər var. Bu mənada, məni bir teatrşünas kimi teatrımızın bugünündən çox sabahı maraqlandırır. Teatr sənətinin sabahı isə məhz gənclərin əlindədir, onların istedadından, biliyindən və ən əsası, peşə əxlaqından asılıdır. Əgər mövcud həyat şərtləri, işsizlik, pulsuzluq, dedi-qodular, intriqalar, dəstəbazlıq və narsisizm onları vaxtından əvvəl sındırmasa, ucuz şöhrətin və saxta təriflərin parıltısına aldanıb yollarından sapınmasalar, bəlkə 10 ildən sonra Azərbaycan teatrının durumu haqqında danışanda optimist mövqe göstərə bilərik.

***- 2009-cu il mayın 18-də dövlət başçısı "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramını təsdiq etmişdi. Bu proqramdan teatrlarımız kifayət qədər yararlana bildilərmi?***

-2009-cu ildə ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı, eləcə də "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və digər hüquqi-normativ sənədlər ölkəmizdə teatr sənətinin hüquqi bazasını formalaşdırdı. Dövlətin teatr sənətinə münasibətinin göstəricisi olan bu sənədlərin qəbul olunması milli teatr sənətində prinsipcə yeni mərhələnin başlanmasını stimullaşdırmalı idi. Milli teatr sənətinə dövlət səviyyəsində diqqət göstərilməsi, onun müəyyən maddi-texniki, inzibati problemlərinin aradan qaldırılmasına zəmin yaratdı. Bir sıra festivallar, konfranslar keçirildi, kitablar nəşr olundu, teatr binaları təmir edildi, teatrlarımız ölkənin hüdudlarından kənarda festivallarda və qastrol səfərlərində oldular, gənc teatr mütəxəssisləri beynəlxalq və respublika miqyaslı forumlarda, seminarlarda, ustad dərslərində, treninqlərdə, ixtisasartırma kurslarında iştirak etdilər. Şəxsən mən özüm Dövlət Proqramının yaratdığı şəraitdən faydalanaraq, Azərbaycan Teatr Xadimləri İttifaqının və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Moldovada və Belarusda Gənclərin Beynəlxalq Teatr Forumunda iştirak etdim. Bu tədbirlərdə iştirakım şəxsən məndən ötrü beynəlxalq əlaqələrin qurulması, sonralar çox sayda müştərək layihələrin həyata keçirilməsi üçün faydalı oldu. Bu günə qədər də Kişenyovda və Belarusda tanış olduğumuz, dostlaşdığımız müxtəlif ölkələrdən olan gənc teatr mütəxəssisləri ilə ünsiyyət saxlayırıq, bir-birimizdən öyrənirik, birgə layihələr həyata keçiririk. Mən gözəl başa düşürəm ki, bütün bu sadaladığım müsbət hallar Dövlət Proqramının sayəsində mümkün olub.

***-Bu gün cəmiyyətdə teatra olan maraq artıb, yoxsa...***

- Bunların hamısı çox yaxşıdır, sevindirici hallardır, ancaq cəmiyyətin teatra marağının artması üçün kifayət deyil. Teatra marağın artması üçün dəqiq strategiyaya söykənən silsilə tədbirlər həyata keçirilməlidir: teatrın repertuar məsələləri, kadr defisiti, maddi-texniki problemləri həll olunmalıdır, teatrların dəqiq fəaliyyət planı işlənib hazırlanmalı, prodüserlik strukturu formalaşdırılmalı, peşəkar marketinq və PR sistemi qurulmalı, KİV-də teatr sənətinin təbliğinə geniş yer ayrılmalı, ölkədə konkret olaraq, teatr sənəti ilə məşğul olan elektron və kağız mətbuatı formalaşdırılmalı, hətta bir yox, bir neçə teatr jurnalı, qəzeti, saytı yaradılmalı, teatr sosiologiyası inkişaf etdirilməlidir. Yalnız bundan sonra teatr sənətinin inkişafından, tamaşaçının bu sənətə marağının artmasından danışmaq mümkündür.

***- Tamaşaçılar hansı mövzular əsasında səhnələşdirilən tamaşalara daha çox üstünlük verirlər?***

- Əslində, burada mövzu birinci dərəcəli məsələ deyil. Əsas olan nədən danışmaq yox, necə danışmaqdır. Teatrlarımız çalışmalıdır ki, çağdaş dövrün insanlarına, onların hisslərinə, düşüncələrinə təsir edən mövzulara müraciət etsinlər və ən əsası, teatr sənətinin müasir üsul və vasitələrindən istifadə olunsun. Bir sözlə, teatr muzey eksponatına çevrilməməli, tamaşaçısı ilə eyni dildə danışmağı öyrənməlidir.

***- Bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə də bir sıra məsələlərdən söz açıldı, yeni təkliflər səsləndirildi. Həmin görüşlə bağlı sizin fikirlərinizi də bilmək maraqlı olardı.***

-Şübhəsiz ki, ölkə başçısının mədəniyyət və incəsənət xadimləri ilə görüşü olduqca əhəmiyyətli hadisədir. Niyə əhəmiyyətlidir? Əvvəla, ona görə ki, bu görüş mədəniyyət və incəsənət xadimləri ilə Prezident və birinci vitse-prezident arasında bilavasitə, maneəsiz ünsiyyət imkanı yaratdı. Səmimi şəraitdə keçən görüşdə sənətkarlar onları narahat edən problemləri çatdırmağa nail oldular. Bu görüş teatr xadimlərində böyük ruh yüksəkliyi yaratdı, kuluarlarda danışılanların əksini sübut etdi və göstərdi ki, dövlət teatra sahib çıxır, dövlət teatrın inkişafında israrlıdır və bunun üçün gərəkli addımlar atmaqdan, böyük vəsait ayırmaqdan çəkinmir. Ən əsası isə, bu görüşün nəticələrini uzun müddət gözləməli olmadıq. Mövcud problemlər haqqında məlumatlanan dövlət başçısı onların operativ şəkildə həll olunması üçün təcili tədbirlər gördü. Görüşdən keçən bir neçə gün ərzində bu günə qədər heç vaxt həyata keçirilməyən miqyasda islahatlar gerçəkləşdi. Teatrların inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Sərəncama əsasən, dövlət teatrlarına 1.8 milyon manat vəsait ayrıldı. Azərbaycan Dövlət Rus Dram Teatrına, və Azərbaycan Dövlət Musiqili Teatrına "akademik" statusu verildi. Dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşları orta hesabla 50 faiz artırıldı.

Mətbuat konfransında mədəniyyət naziri Əbülfəs Qarayevin də qeyd etdiyi kimi, Azərbaycan Dövlət Kukla Teatrının binasında müvəqqəti məskunlaşan "YUĞ" Dövlət Teatrının bina məsələsinin həll olunması istiqamətində də müsbət addımlar atılacaq. İnanıram ki, bu islahatlar davam etdiriləcək və yaxın günlərdə teatr sənətinin inkişafına yönəlmiş tədbirlər öz bəhrəsini verəcək.

***- Belə demək olarmı ki, Azərbaycan teatrının uğurları hələ qarşıdadır?***

-Birmənalı şəkildə demək olmaz ki, bu gündən sonra Azərbaycan teatrı mütləq uğur qazanacaq. Bunu zaman göstərər. Ancaq o faktdır ki, Azərbaycan teatrı yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mərhələ necə tamamlanacaq, teatrımız tərəqqi tapacaq, ya tənəzzül prosesi davam edəcək, bu bilavasitə bağlıdır teatr xadimlərinin iradəsinə, istedadına, bilgisinə və teatr sevgisinə. Dövlət teatrın inkişafına qayğı göstərə, maliyyə ayıra bilər. Ancaq sağlam teatr idarəetmə sistemi formalaşmasa və teatr xadimlərimiz qarşıda dayanan vəzifələrin əhəmiyyətini anlamasalar, biz Azərbaycan teatrının uğurları haqqında danışacağımız günü hələ çox gözləməli olacağıq.

**Qvami Məhəbbətoğlu, *"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**idarələrinin tələbatına əsasən xilasedici sallara açıq satınalma müsabiqəsi (11051AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 16.04.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 236AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
* LOT-1 üzrə İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti, 73
**Əlaqələndirici şəxs:**
Orucov Mirismayıl
Satınalmalar və təchizat şöbəsi, ekspert
+99450 841 12 62
+99412 521 12 62
+99412 521 11 72
Mirismayil.orucov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 16.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək: http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# Pirəzə kəndində seçicilərlə görüş



Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) Ağdaş rayon təşkilatının sədri Cavid Osmanov seçicilərlə görüşlərini davam etdirir. Növbəti görüş rayonun Pirəzə kəndində olub. C.Osmanov ölkəmizin son illərdə əldə etdiyi uğurlardan söz açıb. Azərbaycanın regionun lider dövləti olduğunu diqqətə çatdıran Milli Məclisin deputatı son illər ərzində ölkədə görülən işlərdən danışaraq Azərbaycanın tarixində olmayan bir inkişaf dövrü yaşadığını qeyd edib.

Kənd sakinlərindən Nahid Mustafayev, Fəramil Nəsibov, Rəfi Musayev, Məhbus Aslanov və Babakərim Eyvazov bəyan ediblər ki, bu gün Azərbaycan sabitlik və təhlükəsizlik məkanıdır. Onlar ölkəmizdə, eləcə də Ağdaş rayonunda həyata keçirilən layihələrdən məmnundurlar və hər zaman dövlətə, dövlətçiliyə sadiqdirlər.

Sonra C.Osmanov Pirəzə kənd Folklor evinə gələrək burada çalışan işçilərlə də görüşüb. C.Osmanov Prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimləri ilə görüşünün mədəniyyətimizə, eləcə də bu sahədə xidmətləri olan insanlara göstərilən diqqət və qayğının ifadəsi kimi dəyərli olduğunu bildirib.

Pirəzə kənd Folklor evinin əməkdaşları Yaqut Ədilova və Zülfiyyə Fərzəliyeva ölkə Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə görüşünün bu sahədə çalışan hər bir insanın qəlbində dərin izlər buraxdığını qeyd ediblər.

**Orxan Vahidoğlu, "İki sahil"**

*Aynur Kərimova:*

# Saxta xəbərlərin əsasında jurnalistikanın qaydalarını bilməmək dayanır



Çağdaş dövrdə informasiyanın yayımı qədər, onun əlçatan olması da asanlaşıb. İndi hər kəs istənilən xəbərdən məlumatlı olur. Onların arasından isə etibarlı olanı seçmək lazımdır. Həm oxucular, həm də xəbərçilər mövcud tendensiyaya əməl etməlidirlər.

Əgər fəaliyyətinizi peşəkarlıq üzərində qurmaq istəyirsinizsə o zaman jurnalistikanın təməl prinsiplərindən olan fakta, dəqiqliyə əsaslanmalısınız. Jurnalist olmaq asandır. Çətin olan peşəkar olmaqdır. Öz fəaliyyətində yaxşı mənada seçilməkdir. Bunun üçün də peşəmizin tələblərinə və prinsiplərinə cavab verməyi bacarmalıyıq.

Bəs müasir dövrdə jurnalistikanın dəqiqlik prinsipinə əməl olunurmu?

Bakı Dövlət Universitetinin Televiziya və radio jurnalistikası kafedrasının dosenti Aynur Kərimova sözügedən mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, yanlış məlumatlandırma prinsipi sabitlik və tərəqqi üçün ciddi narahatlıq yaradır: "Saxta xəbər içərisində həqiqət olmayan xəbərdir. Bu tip xəbərlərin əsasında jurnalistikanın qaydalarını bilməmək dayanır. Süni ajiotaj, yalan və həyəcandan ibarət olduğu üçün daha populyar olurlar. Amma bu populyarlığın ömrü qısa olur. Gerçək xəbər isə çox az hallarda populyarlaşır. Saxta, yəni feyk xəbərlərin yayılmaması üçün xəbəri eşidən kimi gerçək qəbul etməyin, onu bir mənbədən deyil, müxtəlif və etibarlı mənbədən dəqiqləşdirmək lazımdır. Sonda yalançı və gülməli vəziyyətə düşməmək üçün informasiya süzgəcdən keçirilib, analiz edilib, təqdim olunmalıdır. Feyk xəbərlərin nəticəsi bəzən çox gülməli, bəzən də çox faciəvi olur. Ona görə də xəbərləri yayarkən və yayımlayarkən çox diqqətli olmaq lazımdır. Hər bir xəbər istehsalçısının, təqdimatçısının xüsusi jurnalistik zövqlə seçdiyi mənbələri olur. Bu mənbələr kifayət qədər dəqiq və etibarlı olarsa, həqiqətə əsaslanarsa daha peşəkar olar. Xəbər ictimaiyyət, kommunikasiya, informasiya mübadiləsi üçün nəzərdə tutulubsa o zaman dəqiq olmayan xəbər birbaşa təbliğata, təşviqata yönəlir. Kütlə üçün nəzərdə tutulan məlumat yayımlanarkən heç vaxt qeyri-ciddiyə alınmamalıdır. Ən xırda, ən qısa, ən gizli söz ,mesaj belə sonradan hər hansı narahatlığa səbəb ola bilər. Nəzərə almalıyıq ki, cəmiyyətin hər bir üzvünün özünəməxsus stereotipləri var ki, hər bir olaya məhz həmin bucaqdan baxırlar. Bəlkə də, stereotip və önyarğı olmasa, daha obyektiv yanaşmaq olar."

Həmsöhbətimiz saxta xəbərlərin yayılmasını sırf onlayn media, xüsusilə də sosial şəbəkələrlə əlaqələndirilməsindən də bəhs etdi: "Feyk xəbərlərin tarixi yaxın dövrləri əhatə etmir. Saxta xəbərlərin ən az jurnalistikanın özü qədər qədim tarixi var. Feyk xəbərlərin yayılmasının səbəbkarı nə onlayn media, nə də sosial şəbəkələrdir. Ola bilər hər hansı rol oynasın. Lakin əsas rol oynamır. Xəbər sosial hesabdan deyil, məhz etibarlı mənbədən ötürülməlidir. O informasiya təhlil olunursa, şəxsi fikir və rəylər varsa, o zaman sosial hesabında paylaşa bilərsən. Belə bir tendensiya var ki, sosial şəbəkə virtual meydandır. İnsanların müzakirədə açıq olduğu bir ortamdır. Çünki orada heç kimin məsuliyyətli və dəqiq olunmalıdır deyə öhdəliyi yoxdur. Ola bilsin ki, məhz rahatlıq baxımından sosial şəbəkələrə bu cür meyil var. İnsanlar orada özlərini daha rahat hiss edirlər. Lakin azadlıqdan sui-istifadə edib sərbəstliyə doğru qaçmaqda xəbərçilik baxımından doğru deyil.Bu səbəbdən də sırf sosial şəbəkədə yayılan hər hansı rəsmi və etibarlı mənbəyi göstərilməyən xəbərlərə əsaslanmaq olmaz. Bəzən sosial şəbəkə istifadəçiləri də təhsili, təcrübəsi olmadan sırf like, rəy, baxış sayı, reklam, populyarlıq arxasınca o qədər qaçırlar ki, dayanıb düşünməyə vaxt tapmırlar. Nəticədə həvəskar jurnalistliyə meyil edirlər. Yarana biləcək, problem və səhvləri nəzərə almırlar. Sonda oxucuya saxta xəbər çatır."

Aynur Kərimova, həmçinin professionallığın əsas şərtinin analiz olduğunu da qeyd etdi: "Xəbəri bir neçə mənbədən yoxlayırıqsa, bu o demək deyil ki, biz şübhələnirik o deməkdir ki, işinə peşəkar yanaşırsan. Bu, əslində sırf jurnalistlərə deyil, həm də oxuculara aiddir. Tam, dəqiq, obyektiv xəbər oxumaq həm sizin xəbər zövqünüzü inkişaf etdirər, həm də aldığınız məlumat doğru olar."

**Yaqut Ağaşahqızı, "İki sahil"**

# Dünyanın ən bahalı brilyantları

Dünyanın ən bahalı brilyantı azdır. Onlar rənglərinə, sahiblərinə görə dəyərli hesab olunurlar. Dünyanın ən bahalı brilyantlarını sizə təqdim edirik.



**"ARCHDUKE JOSEPH" - 21,4 milyon dollar**

76,02 karata malik olan bu brilyant daş 2012-ci ilin noyabr ayında hərracda 21,4 milyon dollara satılıb.

Bu brilyant növü hərracda satılan brilyantların içərisində ən bahalısı olub. Gözəl, ağ və dəyərli daş Hindistanda əldə olunub və bu daş İosif Avqustun şərəfinə adlandırılıb.



**"THE GRAFF PINK" - 46 milyon dollar**

"Graff Pink" brilyantının çəkisi 24,78 karatdır. Almazın tarixi natamamdır. Bu brilyant 2010-cu ildə hərraca çıxarılıb və 27 milyon dollara qiymətləndirilib. Lakin bu daş hərracda 46 milyon dollara satılıb. O zaman bu almaz daşın adı fərqli olub. Bu daşı məşhur İngilis zərgər Qraff Lourens öz şərəfinə adlandırıb.



**"WITTLSBACH" - 80 milyon dollar.**

Bu tünd - göy almaz parlaqlığı və aydınlığı ilə gözləri qamaşdırır. Bu dəyərli daş 2008-ci ildə yenə də məşhur ingilis zərgəri Lourens Qraff tərəfindən 16,4 milyon avroya satın alınmışdı.

Lourens bahalı daşın sahibi olduqdan sonra daşı parçalara ayıraraq bir iki çatışmayan hissələrini aradan qaldırmışdı. Bundan sonra, daşın çəkisi 4 karat aşağı düşüb və daş tanınmaz hala qalıb. Lakin bütün bunlara baxmayaraq brilyantın qiyməti 80 milyon dollar dəyərində qiymətləndirilib.



**"PINK STAR" 83.19 milyon dollar**



Daha bir çəhrayı brilyantın çəkisi 59,60 karat dəyərindədir. Bu daş Cənubi Afrikada aşkar edilib və 1999 - cu ildə dünyanın ən böyük daşı kimi tanınıb. Hazırda bu daş reytinq cədvəlində ən yüksək yerdə durur.

Çəhrayı daşın satış qiyməti 2007-ci ilə qədər məlum olmayıb. Lakin 2013-cü ildə "Sotheby'S" hərracında 83,19 milyon dollara satılıb. İndiyə qədər alıcı hələ də pulu ödəməyib və "Sotheby'S" invertariyasının bir hissəsi kimi durur. Bu səbəbdən daşın qiyməti dəyişilməz olaraq 83,19 milyon dollar dəyərində qalıb.



**"CENTENARY DIAMOND" - 90 milyon dollar.**

"Yüzillik almaz" dünyanın ən məşhur berili (bahalı daş) hesab olunur. Onun dəyəri 273,85 karatdır. Bu gün rənginə və şəffaflığına görə, dünyanın ən böyük brilyant daşı hesab olunur.

Brilyant nəhəng "De Birs" almaz zavodunun 100 illiyi şərəfinə bu ada layiq görülmüşdü. Amerikanın "Gia" şirkəti bu daşı mükəmməlliyinə görə, şəffaf daş adlandırmışdı. Bu brilyant heç zaman publika qarşısında qiymətləndirilməyib, ekspertlərin fikirlərinə görə, daşın təxmini qiymətinin 90 milyon dollar olduğunu bildiriblər.

**"Cullınan" 200 milyon dollar**

Daşın adı mədən sahibi olan Tomas Kullianın şərəfinə adlandırılıb. Hesab olunur ki, mədənin sahibi təsadüfən parlaq əşyanı yerdə görür və o bununla dünyanın ən nəhəng almaz daşını aşkar etmiş olur. Almazın dəyəri 3,106,75 karat olub. İlk öncə zərgərlər daşa qiymət qoya bilməyiblər, səbəbi isə bu qədər dəyərli daşın olduğuna inanmamaqları olub. Lakin sonralar onlar nə qədər dəyərli bir daşın əllərindən çıxdıqlarının şahidi olublar. 1907-ci ildə "Kullian" Böyük Britaniyanın kralı VII Eduarda hədiyyə olunub.


Tomas Kullian

**Könül Cavid,**
**"İki sahil"**

# Hava soyuyur:
## güclü külək, yağış, qar...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycanda hava şəraitinin qeyri-sabit keçəcəyi barədə xəbərdarlıq edib.

Nazirliyin Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında martın 14-dən 15-i səhərədək şimal-qərb küləyinin sürətinin 15-20 m/s olacağı, arabir 23-28 m/s-dək güclənəcəyi gözlənilir.

Havanın temperaturu ötən günlə müqayisədə 5-8 dərəcə aşağı enəcək.

Azərbaycanın rayonlarında martın 14-ü gündüzdən 15-i gündüzədək bəzi rayonlarda hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyinin sürətinin arabir 15-20 m/s olacağı, ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək.

# Kapitan "Yuventus"da 500-cü oyununu keçirdi

UEFA Çempionlar Liqasının 1/8 final mərhələsi çərçivəsində İspaniyanın "Atletiko" klubu ilə cavab oyunu (3:0, ilk oyun 0:2) İtaliya çempionu "Yuventus"un kapitanı Corco Kyellini üçün əlamətdar olub.

Milli.Az xəbər verir ki, o, Turin klubunun heyətində 500-cü oyununu keçirib. Bu barədə UEFA-nın mətbuat xidməti məlumat yayıb.

35 yaşlı müdafiəçi bu göstəricidə 5-ci sıraya yüksəlib. "Yuventus" formasında Kyellinidən daha çox oyun keçirmiş futbolçular isə bunlardı:




*Alessandro Del Pyero (705)*
*Canluici Buffon (656)*
*Qaetano Şirea (552)*
*Cüzeppe Furino (528)*

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı

**Mənzər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin "Kəşfiyyatgeofizika" İstehsalat bölümünün rəis müavini Dadaş Həsənova, dayısı

**Novruz Babayevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# İmmunitet sisteminin qocalması xərçəng yaradır?



Britaniyalı mütəxəssislər bildiriblər ki, insan yaşa dolduqca onun immunitet sistemi də qocalır və bu səbəbdən onkoloji xəstəliyin yaranma riski artmış olur. Alimlər tərəfindən aparılan tədqiqatlar göstərir ki, qadınlar kişilərlə müqayisədə daha az onkoloji xəstəliyə tutulurlar.

Mütəxəssislər qeyd edirlər ki, onkoloji xəstəliyin yaranmasına irsi faktorlarla yanaşı, ətraf mühitin də təsiri böyükdür.

Burada immunitet sisteminin hansı rol oynadığını müəyyən etmək üçün tədqiqatçılar yaşı 18-dən 70-ə qədər olan iki milyon pasiyent üzərində araşdırma aparıblar. Bundan sonra mütəxəssislər əldə etdikləri məlumata əsasən müəyyən ediblər ki, immunitet sisteminin yaşlanması xərçəng xəstəliyinin yaranması riskini artırır. Qadınlarda isə immunitet sistemi gec yaşlanır.

Bu yaxınlarda Dünya Səhiyyə Təşkilatı məlumat yayaraq bildirmişdi ki, onkoloji xəstəliyin yaranması riskini spirtli içkilər daha çox artırır. Müəlliflər bildiriblər ki, spirtli içki qəbul edən insanlar nə qədər yüksək risk altında olduqlarını təsəvvür belə etmirlər.

Təsisçi:
SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan:
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 14.03.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8287
İndeks: 0151, Sifariş: 921

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.